# MUSİQİ 1

METODİK VƏSAİT



NƏRGİZ RƏCƏBOVA
ŞƏHLA QULİYEVA
ZEMFİRA ƏLİYEVA

*Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün*

# MUSİQİ

*fənni üzrə dərsliyin*

## METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

## MÜNDƏRİCAT


Giriş . . . 3
1-ci sinif Musiqi fənni üzrə məzmun standartları . . . 8
Məzmun standartları və fənlərarası inteqrasiya cədvəli . . . 9
Tədris proqramının illik planlaşdırma cədvəli . . . 10

**Dərslərin gündəlik planlaşdırılması**

**I bölmə. Musiqi aləmi**
1. Gözəl Vətən . . . 12
2. Musiqili diyar . . . 13
3. Musiqinin xarakteri . . . 14
4. Marş musiqisi . . . 15
5. Tıq-tıq xanımın rəqsi . . . 16
6. Mahnı, marş, rəqs . . . 17
7. Doğma yurdumuzun musiqisi . . . 18
8. Azərbaycan rəqsləri . . . 20
9. Musiqili oyunlar . . . 21

**II bölmə. Melodiya**
10. Sehrli Melodiya . . . 22
11. Musiqi əlifbası . . . 23
12. Mahnı deyək, rəqs edək . . . 24
13. Musiqi nərdivanı . . . 25
14. Bayram şənliyi . . . 26

**III bölmə. Ritm**
15. Zərb musiqi alətləri . . . 28
16. Ritmik vurğular . . . 29
17. Ritmin növləri . . . 30

**IV bölmə. Melodiya, ritm və temp**
18. Qonaqpərvər dostlar . . . 31
19. Zil və bəm səslər . . . 32
20. Qəhrəmanlıq nəğməsi . . . 33
21. Əzizim Vətən! . . . 34
22. Gəl, gəl, a yaz günləri! . . . 36
23. Çal, oyna! . . . 37
24. Novruz xonçası . . . 38

**V bölmə. Könül açan nəğmələr**
25. Sülh və mübarizlik . . . 39
26. Sülhün carçıları . . . 40
27. Nəğməli bahar . . . 41
28. Gözəl məkan, Azərbaycan! . . . 42
29. Gülməli nağıl . . . 43
30. Hər birimiz bir çiçək . . . 44
31. Güllərin rəqsi . . . 45
32. Bayram günü . . . 46
33. Uşaqların nəğməli dünyası . . . 47
34 Musiqi çələngi . . . 48

Musiqi repertuarı . . . 49
İstifadə edilmiş mənbələr . . . 64

# Giriş

Hörmətli müəllim! Ümumtəhsil məktəblərində tədris olunan Musiqi fənninin məqsədi musiqinin tədrisi və tərbiyəvi imkanları vasitəsilə şəxsiyyətin formalaşdırılmasıdır. Musiqi dərslərində şagirdlər musiqi mədəniyyətinə yiyələnir, onun mənəvi-estetik əsasını öyrənir, öz yaradıcı imkanlarını gerçəkləşdirirlər.

Dərslik komplekti Musiqi fənni üzrə təhsil proqramı, dərslik və tədris vasitələrinin tərtibinə qoyulan tələblər, tədris materialının planlaşdırılması, təlim üsullarının müəyyənləşdirilməsi və müəllimin hazırlığının həyata keçirilməsi üçün müvafiq təlimatlar formasında hazırlanmış qaydalar əsasında yazılmışdır.

Dərslik komplektində mövzular 5 bölmədə qruplaşdırılmışdır: I – "Musiqi aləmi", II – "Melodiya", III – "Ritm", IV –"Melodiya, ritm və temp", V – "Könül açan nəğmələr".

Hər bölmədə verilmiş mövzu və tapşırıqlar 1-ci sinif Musiqi kurikulumunun standartlarının reallaşmasına xidmət edir.

### Dərslik

Şagirdlərin musiqi sahəsində ilkin bilik, bacarıq və vərdişlərə yiyələnməsi (dünyagörüşünün zənginləşdirilməsi, xorla oxu, sadə musiqi alətlərində çalma, rəqs elementlərinin yerinə yetirilməsi, ritmik və improvizəetmə bacarıqlarının formalaşması) məqsədilə mövzular nağıl formasında təqdim olunmuşdur.

Tədris materialı yalnız informativ xarakter daşımır. O həm də şagirdlərdə obrazlar haqqında müəyyən emosional təsəvvürlərin yaranmasına istiqamətləndirilib. Bütün mövzular "Saz və Ney" adlı didaktik nağılda baş verən hadisələrlə bağlıdır. Saz və Ney adlı iki qəhrəmanın və nağılın "musiqili görüşləri"nə dəvət olunmuş digər personajların söhbətləri ilə şagirdlərə çatdırılır. Hər bir mövzu bir "musiqili görüş"dür.

Burada Saz, Ney, Melodiya, Ritm, Temp, notlar, musiqi alətləri, Cırtdan, Tıq-tıq xanım və Naznaz müəyyən funksiya daşıyır. Nağılın əsas obrazları Saz, Ney, Melodiya, Ritm və Tempdir. Saz və Ney tədris ili ərzində digər nağıl qəhrəmanlarını təqdim edərək nəzəri və fəaliyyətlə bağlı məlumatlar verir. Melodiya musiqi əsərlərinin xarakteri və məzmunu haqqında ümumi məlumat verir; Ritm daha çox musiqi əsərlərinin ritmi haqqında məlumat verir; Temp musiqi əsərlərinin sürəti haqqında məlumat verir. İl boyu tətbiq olunan musiqili-didaktik oyunları da məhz nağıl qəhrəmanları təqdim edir. Müəllim şagirdləri yeni nağılın obrazları ilə tanış etdikcə onların diqqətini Melodiyanın donunun üzərindəki not işarələrinə, Ritmin kəmərindəki nağaranın çubuqlarına və Tempin boynundan asılmış saata yönəltməlidir.

Şagirdlərin yeni materialın dərk edib mənimsəməsi üçün dərslikdə müxtəlif sxemlərə, cədvəllərə, rəsmlərə, şərti şəkillərə və s. geniş yer verilmişdir.

Dərslikdə mahnıların, rəqslərin və instrumental pyeslərin məzmunu "şərti şəkillər"də öz əksini tapmışdır. Bundan başqa, mahnıların bənd və nəqəratlarının məzmununu şagirdlər daha asan qavrasınlar və mənimsəsinlər deyə onların məzmunu ayrı-ayrı rəsmlərdə verilmişdir. Məsələn, 2-ci dərsdə (səh. 8) "Gözəl Vətən" mahnısının bəndlərinin məzmunu molbertlərdə, 4-cü dərsdə (səh. 13) "Nağıl-nəğmə" mahnısının hər bəndinin məzmunu göyərçinlərin dimdiklərindəki rəsmlərdə əks olunmuşdur. Bütün musiqi əsərlərinin şərti şəkilləri, müəlliflərinin portretləri və mahnıların mətni (sözləri) dərsliyin sonunda yerləşdirilmişdir.

Dərslikdə yaradıcı təfəkkürün inkişafı üçün *mahnının oxunması, musiqi əsərinin dinlənilməsi, obrazın təsvir edilməsi, zərb musiqi alətlərində çalmaq, rəqs elementlərinin* və *ritmik hərəkətlərini yerinə yetirilməsi* kimi fəaliyyətlər nəzərdə tutulmuşdur. Həmin fəaliyyətləri ye-

rinə yetirmək üçün lüğətdə müvafiq anlayışlar verilmişdir. Şagirdlərin yaş xüsusiyyətlərini və anlam səviyyəsini nəzərə alaraq həmin anlayışlar ən sadə formada verilmişdir.

Dərslikdən daha səmərəli istifadə etmək üçün hər fəaliyyət növü fərqli simgələrlə göstərilmişdir.

*Fəaliyyətlərin şərti işarələri:*

*Oxumaq –* 

*Rəqs etmək –* 

*Dinləmək –* 

*Tapşırıq –* 

*Lüğət –* 

**Metodik vəsait**

Metodik vəsait tövsiyə xarakteri daşıyır. Müəllim təklif olunan planlaşdırmada məqsədəuyğun dəyişiklik edə bilər.

Hər bir dərsin məqsədi həmin dərsdə reallaşan standartlara görə müəyyənləşdirilmişdir. Dərslərdə musiqi fənn kurikulumunun məzmun xətlərinin əlaqəli göstərilməsi fəndaxili inteqrasiyanı təmin edir. Fənlərarası inteqrasiya (Azərbaycan dili, Həyat bilgisi, Riyaziyyat, Təsviri incəsənət, Fiziki tərbiyə fənləri ilə qarşılıqlı əlaqə) şagirdlərdə eyni bacarıqların formalaşmasına xidmət edir.

Musiqi fənni üzrə təlim-tədris prosesinin səmərəli təşkili üçün müasir təlimin bütün formaları təqdim olunur: fərdi, cütlərlə, kiçik və böyük qruplarla və kollektiv iş. Bu isə hər bir şagirdin öyrənmə prosesinin intensivliyinə və əməkdaşlıq vərdişlərinin formalaşmasına şərait yaradır.

Təlimin qarşıya qoyduğu vəzifələrin və prinsiplərin həyata keçirilməsi təlim-tərbiyə prosesinə təsir edən amillərdən və şərtlərdən, məhz öyrədici mühitdən əhəmiyyətli dərəcədə asılıdır. Müəllim öyrədici mühiti (şərti bölüm: əşyəvi, informasiya və sosial-psixoloji mühit) təşkil etmək üçün şagirdin fərdi xüsusiyyətlərini nəzərə almalı, şəxsiyyətin inkişafına optimal şərait yaratmalıdır. Musiqi dərslərində öyrədici mühiti yaratmaq üçün musiqi əsərlərinin müəlliflərinin portretlərini, mövzuya aid təqdimatlar, şəkil, illüstrasiya və plakatlar, sadə zərb musiqi alətləri, tapmacalar, şeir, mahnıda verilmiş obrazlara aid əşya və maskalar, musiqi əsərlərinin videoçarxları və səsyazmalarından və s. istifadə oluna bilər.

Bütün dərslər 3 mərhələli strukturda verilib: I. "Motivasiya", II. "Fəaliyyət" və III. "Ümumiləşdirmə və refleksiya".

Metodik vəsaitdə hər dərsin I mərhələsi ("Motivasiya") nağıl formasında təqdim olunmuş, "musiqili görüşlər"də mövzu nağıl qəhrəmanlarının dili ilə, onların söhbətlərində verilmişdir. Müəllim nağılı həmin qəhrəmanların adından oxumaqla yeni mövzuya maraq yaradır və ya keçilmiş mövzuları yada salır. Motivasiya mərhələsi tədqiqat sualı ilə bitir.

II mərhələdə ("Fəaliyyət") təlim məqsədlərinə nail olmaq üçün dərsdə görüləcək fəaliyyət əks olunmuşdur (mahnıoxuma, rəqsetmə, ritmtutma, musiqi alətlərində çalma, dinləmə və müxtəlif tapşırıqların yerinə yetirilməsi). Əksər dərslərdə bu mərhələdə dərsliklə işə və yerinə yetirilən tapşırıqlardan sonra müzakirələrə yer verilir.

III mərhələdə ("Ümumiləşdirmə və refleksiya") dərs boyu görülən fəaliyyət ümumiləşdirilir, qapalı və açıq sualların köməyi ilə refleksiya keçirilir.

Musiqi əsərlərini öyrənərkən müəllim şagirdləri əsərlərin müəlliflərinin portretləri və şərti şəkilləri ilə tanış etməlidir (dərslik səh. 71–80). Məqsədəuyğun olaraq həmin şərti şəkillər dərsin müxtəlif mərhələlərində istifadə oluna bilər. Şagirdlərə "*Siz musiqi əsərinə görə bu şəkillərə nəyi əlavə və ya şəkillərdən nəyi ixtisar edərdiniz*" sualı ilə müraciət etmək olar. Metodik vəsaitdə musiqi əsərlərinin not mətni verilmişdir (səh. 49–64). Müəllim bu materialdan da resurs kimi istifadə edə bilər. Musiqi əsərlərinin audiofaylları http://trims.edu.az/site/audio.php?id=1087 linkində yer almışdır.

**Mahnı oxumaq.** Mahnını oxumazdan əvvəl səsaçma məşğələsini keçirmək lazımdır. Bu zaman fizioloji hazırlıq aparılır, əsərlərin ifasından öncə səs aparatı "isindirilir", nəfəs, səsin atakası, artikulyasiya, tələffüz, intonasiya və digər zəruri vərdişlər formalaşdırılır. Müəllim təmrinləri seçərkən onların melodik və ritmik cəhətdən sadə və yaddaqalan olmasına diqqət yetirməlidir. Təmrinlər taraz səslə, sakit (qışqırmadan) oxunmalıdır.

Musiqi dərslərində mahnıların xorla ifasına daha çox yer verilir. Xorla oxuma şagirdlərdə diqqəti, müşahidəçiliyi, intizamı tərbiyə edir və onları yaradıcı kollektivdə birləşdirir. İfa zamanı şagirdlərin xorda oxu vərdişlərinə yiyələnməsi, səslərinin qorunması, ilkin musiqi anlayışlarının və müəyyən bacarıqların formalaşması üçün müəllim daimi və məqsədyönlü iş aparır. Verilmiş mahnıların əksəriyyətinin 2-3 dərsdə öyrənilməsi nəzərdə tutulmuşdur. Mahnının düzgün və təmiz oxunması üçün müəllim ilk dərsdən mütəmadi olaraq şagirdlərin diqqətini "Mahnının ifa qaydaları"na (dərslik səh. 5) yönəltməlidir. Mahnı üzərində iş prosesi üç mərhələdən ibarətdir: mahnı ilə tanışlıq, mahnının öyrənilməsi və ifası.

**Musiqi əsərlərini dinləmək.** Musiqi repertuarına asan mənimsənilən və şagirdlərin yaş səviyyəsinə uyğun, əsasən, oynaq xarakterli musiqi nümunələri daxil edilmişdir. Müəllim 1-ci dərsdə şagirdləri "Musiqi dinləmə qaydaları" ilə (dərslik səh. 5) tanış etməli, vaxtaşırı onların diqqətini həmin qaydalara yönəltməlidir. Musiqi əsərləri tam şəkildə və ya hissə-hissə (stop-kadr üsulu ilə) səsləndirilməlidir. Şagirdlərə həmin musiqi nümunələrinin melodik xüsusiyyətləri, ritmi, tempi, janrı və quruluşu haqqında qısa məlumat verilməlidir. Musiqi əsərləri dinlənildikdən sonra həmin əsərlər haqqında müzakirələr aparılmalıdır.

**Rəqsləri ifa etmək.** I sinfin proqramına ilk dəfə olaraq rəqslərin öyrənilməsi (Azərbaycan xalq rəqslərinin bəzi elementləri) daxil edilmişdir. Əvvəl rəqslərin musiqisi səsləndirilməlidir. Sonra rəqs elementləri (hərəkətləri) öyrədilərkən uşaqlara Azərbaycan xalq rəqslərinin ifa tərzini çatdırmaq lazımdır: qızların hərəkətləri incə, zərif, oğlanların hərəkətləri isə cəsur, əzəmətli olmalıdır. Dərslikdə rəqs elementləri şəkil və sxemlərdə verilmişdir.

**Musiqi alətlərində çalmaq.** 1-ci sinifdə bu fəaliyyət sadə zərb musiqi alətləri vasitəsilə yerinə yetirilir. Musiqi alətində çalmazdan əvvəl onun quruluşu, həmin alətdə ifa zamanı oturuş qaydası, əllərin alət üzərində düzgün qoyulması izah olunmalıdır.

**Təlimi diferensiallaşdırmaq.** Təlimin diferensiallaşdırılmasını aşağıdakı kimi həyata keçirmək olar:

• Yaradıcılıq səviyyəsinə görə (yaradıcı olmayan tapşırıqlara aiddir: musiqi nümunəsi üzərində iş, faktoloji sualların cavablandırılması, səslənmənin təqlid olunması və ya müəllimin ifasının təkrar olunması və s. Yaradıcı tapşırıqlar isə qeyri-standart nəticələr ehtiva edir: təxəyyülə əsaslanan şəkil çəkmək, rollu oyunda iştirak, sadə musiqi alətlərində çalmaq, rəqs etmək və s.);

• Çətinlik səviyyəsinə görə;

• Həcminə görə (mövzuya uyğun əlavə tapşırıqlar təklif oluna bilər);

• Müstəqillik səviyyəsinə görə (bütün uşaqlar eyni tapşırığı yerinə yetirir – bəziləri müstəqil şəkildə, digərləri isə müəllimin köməyi və nəzarəti altında);

• Öyrənmə fəaliyyətinin xarakterinə görə;

• Şagirdlərə göstərilən köməyin xarakterinə görə (bütün uşaqlar eyni vaxtda işə başlayır və köməyə ehtiyacı olan şagirdlərə bu şəkildə dəstək göstərilir: köməkçi kartlar, asan, lakin oxşar tapşırıqların verilməsi, lövhədə qeydlər və s.).

Xüsusi təlim ehtiyacı olan şagirdlərin öyrənmə aktivliyi və bacarıqları fərqlidir. "Yada sal və ifa et", "Hərəkəti yerinə yetir", "Musiqili kub", "Notları tanı", "Tap və ifa et", "Melodiyanın hərəkətini təsvir et", "Asta, orta, tez", "Fırlança", "Musiqili fincan" kimi musiqili-didaktik oyunlar vasitəsilə təhsildə xüsusi ehtiyacı olan şagirdlərin də musiqi bilik, bacarıq və vərdişləri formalaşır. Həmin oyunların qaydaları metodik vəsaitdə verilmiş dərslərin gündəlik planlaşdırılmasında göstərilmişdir.

**Oyunlar.** Oyun həm uşağın psixoloji vəziyyətini müəyyən etmək və şəxsiyyət kimi inkişafının diaqnostikasını aparmaq üçün bir vasitə, həm də onun inkişafındakı ləngiməni və qüsurları aradan qaldırmaq üçün əla metoddur.

• Qaydalı oyunlar uşaqların davranışlarını idarə etmək qabiliyyətini artırır, onların impulsivliyini azaldır və bununla da xarakterin formalaşmasına yardım edir. Qaydalı oyunlara didaktik, mütəhərrik və rollu oyunlar aid edilir.

• Didaktik (öyrədici) oyunlar şərti olaraq 3 növə ayrılır: oyuncaqla (müxtəlif əşya) oynanılan oyunlar, şifahi və ya sözlü (tapmaca) oyunlar, loto (cüt şəkilli kart) oyunları. Dərs zamanı didaktik oyunlardan istifadə uşaqlarda yaddaş, diqqət və təfəkkürün inkişafına kömək edir.

• Mütəhərrik oyunlar çəldliyi, çevikliyi, sürəti inkişaf etdirir, fiziki cəhətdən təkmilləşməyə zəmin yaradır (xüsusən də yarış formasında keçiriləndə). Musiqi dərslərində süjetli və süjetsiz elementar mütəhərrik oyunlardan və əl-ələ tutaraq dairədə hərəkət edib oynanılan, mahnılarla müşayiət olunan oyunlardan istifadə etmək olar.

• Rollu oyunlarının xəyal olduğunu anlayan uşaqlar buna baxmayaraq, olduqca real hisslər yaşayır və təcrübə qazanır və bununla da daxili dünyalarını zənginləşdirirlər. Rollu oyun uşaqların idraki inkişafında mühüm əhəmiyyət kəsb edir, onlarda diqqəti və yaddaşı inkişaf etdirir. Tərəfdaşlarla birgə oyun zamanı uşaqlar ünsiyyət qurmağı, başqalarının istək və fəaliyyətlərini nəzərə almağı, fikirlərini müdafiə etməyi, həmçinin birgə planlar hazırlamağı və həyata keçirməyi öyrənirlər. Müxtəlif rolları yerinə yetirərkən uşaqlar fərqli fəaliyyətlərin bütün aspektlərini əhatə etməyə başlayırlar ki, bu da, öz növbəsində, insanın düşüncə qabiliyyətini inkişaf etdirməyə, başqasının fikrini qəbul etməyə kömək edir.

**Qiymətləndirmə.** Məktəbdaxili qiymətləndirmə təhsilin keyfiyyətini yüksəltmək məqsədi daşıyır. Məktəbdaxili qiymətləndirmənin 3 növü var: diaqnostik, formativ və summativ qiymətləndirmə. 1-ci sinifdə məktəbdaxili qiymətləndirmənin summativ növü aparılmır.

***Diaqnostik qiymətləndirilmə*** şagirdlərin ilkin bilik və bacarıq səviyyəsini müəyyənləşdirmək üçün istifadə edilir. Müsahibə, söhbət, müşahidə, tapşırıqlar və valideynlərlə əməkdaşlıq üsulları ilə şagirdlərin maraq dairəsi, dünyagörüşü, musiqi qabiliyyətləri haqqında məlumat əldə edilir. Bu da, öz növbəsində, təlimin məqsəd və strategiyalarında çevik dəyişikliklər aparılmasına imkan yaradır.

Hər bir dərsdə təlim nəticələrinin reallaşması səviyyəsini ***formativ qiymətləndirmə*** vasitəsilə müəyyən etmək olar. Formativ qiymətləndirmə yalnız şagird nailiyyətlərinin dinamikasını ölçən qiymətləndirmə deyil. O bu nailiyyətlərin və irəliləyişin əsas səbəblərindən biridir, çünki dərsdə həyata keçirilən formativ qiymətləndirmə zamanı şagird əks-əlaqə nəticəsində öz təlim fəaliyyətinin zəif və güclü tərəflərini öyrənir. Növbəti mərhələdə inkişaf üçün formativ qiymətləndirmə zamanı şagird öz səhvlərinin təhlili əsasında həm özünü qiymətləndirir, həm də istiqamətləndirilir.

Formativ qiymətləndirmənin mexanizmləri:

• Şagirdin qiymətləndirmə meyarlarını əvvəlcədən bilməsi və öz fəaliyyətində ona yönəlməsi;

• Hər bir şagirdlə əks-əlaqənin yaradılması;

• Şagirdin inkişafa istiqamətləndirilməsi;

• Refleksiya və özünüqiymətləndirmənin həyata keçirilməsi.

Musiqi dərslərində, başqa dərslərdə olduğu kimi, müəllim şagird nailiyyətinin inkişafını izləməklə təlim strategiyasını qurur. Formativ qiymətləndirmə hər bir şagirdi pozitiv ruha kökləməli, daha yaxşı nailiyyətlər əldə etməyə həvəsləndirməlidir. Qiymətləndirmənin bu növünü müxtəlif yollarla keçirmək olar: müşahidə, sorğu, müqayisə və s. Musiqi dərslərində formativ qiymətləndirməni aşağıdakı meyarlara görə aparmaq olar: dinləmə və əsərin təhlili, xor-vokal fəaliyyəti, səlis intonasiya, musiqi alətlərində çalma, mahnının ifa qaydalarına riayət, ritmik hərəkətlərin və rəqs elementlərinin icrası, müxtəlif musiqi fəaliyyətləri zamanı öyrənmə fəallığı, musiqili oyunlarda iştiraketmə, yaradıcı tapşırıqların yerinə yetirilməsi. Məsələn, formativ qiymətləndirməni "Notları topla" üsulu ilə aparmaq olar. Bu zaman müəllim üzərində notlar təsvir olunmuş bir neçə kart hazırlayır. Dərs zamanı şagirdlərin nailiyyətlərini kartları təqdim etməklə qiymətləndirir və toplanan kartların sayına əsaslanıb dərsin sonrakı mərhələləri üçün müvafiq strategiya müəyyənləşdirir.

***Özünüqiymətləndirmə*** şagirdi öz fəaliyyətini təhlil və müqayisə etməyə, nəticə çıxarıb daha yaxşı işləməyə sövq edir. Bunun üçün "İşıqfor" və "Ovuc və yumruq" üsullarından istifadə etmək olar.

1. "İşıqfor". Hər bir şagirdə üç rəngdə (qırmızı, sarı və yaşıl) kart paylanır. Əks-əlaqədə şagirdlər bu kartlardan istifadə edirlər: qırmızı rəng (kömək lazımdır), sarı (əmin deyiləm), yaşıl (öhdəsindən gəlirəm).

2. "Ovuc və yumruq". Hər bir şagird təlimatlandırılır: ovuc – "tapşırığı yerinə yetirdim", üç barmaq – "tapşırığı qismən yerinə yetirdim", yumruq – "tapşırığın öhdəsindən gələ bilmirəm" deməkdir.

**Valideynlərlə iş.** Şagirdlərin öyrənməsi ilə bağlı məlumatlanmaqda maraqlı olan tərəflərdən biri də valideynlərdir. Övladlarının təlimdə irəliləməsi və geriləməsi haqqında məlumatların daimi olaraq onlara çatdırılması qanunvericilikdə də nəzərdə tutulmuşdur.

Həmin məlumatlar e-mail vasitəsilə və ya telefonda mesaj yazmaqla valideynə çatdırıla bilər.

Ötürülən məlumatlar şagirdin öyrənməsinin həqiqi vəziyyətini əks etdirməli, onu ruhdan salmamalı və yaranan problemin həllində valideynin hansı köməyi edə biləcəyini göstərilməlidir.

# 1-ci sinif Musiqi fənni üzrə məzmun standartları

**1-ci sinfin sonunda şagird:**

- ifa etdiyi və dinlədiyi uşaq mahnılarının müəlliflərini tanıyır;
- əsas musiqi janrları (mahnı, rəqs, marş) və musiqi ifadə vasitələri (temp, ritm) haqda təsəvvürə malik olduğunu nümayiş etdirir;
- dinlədiyi musiqi əsərlərində ifadə olunan əhvali-ruhiyyəni sadə formada şərh edir, melodiyaların ritm və tempinə uyğun hərəkətlər nümayiş etdirir;
- xor tərkibində birsəsli (unison) oxuyur;
- sadə uşaq musiqi alətlərində kiçik melodiya parçalarını notla çalır və oxuyur;
- mahnı oxumaq qaydalarını bilir, sadə ölçülü dirijorluq jestlərinə əməl edir.

**Məzmun xətləri üzrə əsas və alt standartlar**

**1. Musiqi aləmi**

*Şagird:*

**1.1. İfa etdiyi və dinlədiyi uşaq mahnılarının müəlliflərini tanıyır.**

1.1.1. Mahnı müəlliflərinin adlarını sadalayır.
1.1.2. Dinlədiyi mahnının müəllifini müəyyənləşdirir.
1.1.3. Mahnı müəlliflərini onların şəkillərindən tanıyır.

**1.2. Əsas musiqi janrları (mahnı, rəqs, marş) və musiqi ifadə vasitələri (temp, ritm) haqda təsəvvürə malik olduğunu nümayiş etdirir.**

1.2.1. Əsas musiqi janrları və musiqi ifadə vasitələrini sadalayır.
1.2.2. Xarakterik cəhətlərinə görə əsas musiqi janrlarını fərqləndirir.
1.2.3. Mahnıların giriş, bənd, nəqərat hissələrini fərqləndirir.

**2. Emosional dəyərləndirmə**

*Şagird:*

**2.1. Dinlədiyi musiqi əsərlərində ifadə olunan əhvali-ruhiyyəni sadə formada şərh edir, melodiyaların ritm və tempinə uyğun hərəkətlər nümayiş etdirir.**

2.1.1. Mahnının xarakterini (şən, qəmli) müəyyənləşdirir.
2.1.2. Mahnının emosional məzmununu ifa prosesində büruzə verir.
2.1.3. Musiqinin dəyişən tempinə və ritminə uyğun hərəkətlər edir.

**3. Musiqi fəaliyyəti**

*Şagird:*

**3.1. Xor tərkibində birsəsli (unison) oxuyur.**

3.1.1. Öyrənmək məqsədilə müəllimin oxuduğu nümunələri təkrar edir.
3.1.2. İfa etdiyi melodiyalara sadə vasitələrlə ritm tutur.
3.1.3. Xor daxilində kollektiv ifa qaydalarını mənimsədiyini nümayiş etdirir.

**3.2. Sadə uşaq musiqi alətlərində tanış olduğu mahnılardan kiçik melodiya parçalarını çalır və oxuyur.**

3.2.1. Oktava daxilində ayrı-ayrı notları çalır.
3.2.2. Qammanın I və V səslərindən istifadə etməklə öz ifasına müşayiət yaradır.
3.2.3. Bir oktava daxilində səsləri yuxarı və aşağı olaraq oxuyur.

**3.3. Mahnı oxumaq qaydalarını bilir, sadə ölçülü dirijorluq jestlərinə əməl edir.**

3.3.1. Düzgün mahnı oxumaq qaydalarını mənimsədiyini nümayiş etdirir.
3.3.2. Səsin imkanlarından düzgün istifadə edir.
3.3.3. Öz ifasını 2/4 sadə ölçülü dirijorluq hərəkətləri ilə göstərə bilir.

# Məzmun standartları və fənlərarası inteqrasiya cədvəli

| Bölmə | Dərs №-si | Mövzu | 1.1. | 1.2. | 2.1. | 3.1. | 3.2. | 3.3. | Azərbaycan dili (Azərb.d.) | Riyaziyyat (Riy.) | Həyat bilgisi (H.b.) | Təsviri incəsənət (T.i.) | Fiziki tərbiyə (F.t.) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| I. Musiqi aləmi | 1. | Gözəl Vətən | 1.1.3. | | | | | 3.3.1. | 1.2.2. | | 2.3.1., 2.4.1. | | |
| | 2. | Musiqili diyar | | 1.2.3. | 2.1.3. | | | | | | | 3.1.1. | 4.1.1. |
| | 3. | Musiqinin xarakteri | | 1.2.1. | 2.1.1. | | | | 2.1.1. | | | 2.1.1. | |
| | 4. | Marş musiqisi | 1.1.3. | 1.2.1. | 2.1.2. | | | | 1.2.3. | | 1.1.1. | | 2.1.1. |
| | 5. | Tıq-tıq xanımın rəqsi | | | 2.1.3. | | | 3.3.2. | 1.2.3. | | 1.1.2. | | |
| | 6. | Mahnı, marş, rəqs | | 1.2.2. | 2.1.2. | | | | 1.2.1. | | | | 2.1.1. |
| | 7. | Doğma yurdumuzun musiqisi | | | 2.1.1. | 3.1.3. | | | | | 2.3.1. | | 1.1.4. |
| | 8. | Azərbaycan rəqsləri | | | 2.1.1., 2.1.3. | | | | 1.2.1. | | | | 3.1.1. |
| | 9. | Musiqili oyunlar | | | 2.1.3. | | | | | | | | 4.1.1. |
| II. Melodiya | 10. | Sehrli Melodiya | | | 2.1.3. | | | 3.3.1. | | 1.1.1. | | | 1.1.4. |
| | 11. | Musiqi əlifbası | | | 2.1.3. | | 3.2.3. | | 1.2.3. | 1.1.1. | | | 2.1.1. |
| | 12. | Mahnı deyək, rəqs edək | | | 2.1.3. | | 3.2.3. | | 4.1.5. | | | | 4.1.1. |
| | 13. | Musiqi nərdivanı | | | 2.1.2., 2.1.3. | | 3.2.3. | | 4.1.4 | | | | 4.1.1. |
| | 14. | Bayram şənliyi | | 1.2.2. | | 3.1.3. | | | | | 2.1.2. | | 4.1.1. |
| III. Ritm | 15. | Zərb musiqi alətləri | | 1.2.1. | 2.1.3. | 3.1.2. | | | 4.1.5. | | | | 2.1.1. |
| | 16. | Ritmik vurğular | 1.1.1. | 1.2.3. | | 3.1.2. | | | 4.1.5. | | | | 2.1.1. |
| | 17. | Ritmin növləri | | | 2.1.3. | 3.1.3. | | | 1.2.3. | | | | 4.1.1. |
| IV. Melodiya, ritm və temp | 18. | Qonaqpərvər dostlar | | 1.2.3. | 2.1.2. | 3.1.1. | | | 1.2.3. | | 1.1.2. | | |
| | 19. | Zil və bəm səslər | | | 2.1.3. | | | 3.3.2. | | | 2.1.1. | | 4.1.1. |
| | 20. | Qəhrəmanlıq nəğməsi | | 1.2.1. | 2.1.3. | | | 3.3.1. | 2.2.4. | | 1.1.2. | | 3.1.1. |
| | 21. | Əzizim Vətən! | | 1.2.3. | 2.1.3. | | | | 4.1.5. | | | | 3.1.1. |
| | 22. | Gəl, gəl, a yaz günləri! | | | 2.1.3. | 3.1.2. | | | 4.1.7. | | | | 3.1.1. |
| | 23. | Çal, oyna! | | | 2.1.3. | 3.1.2., 3.1.3. | | | | | | | 3.1.1. |
| | 24. | Novruz xonçası | | | | 3.1.2. | | 3.3.1. | | | | | 2.1.1. |
| V. Könül açan nəğmələr | 25. | Sülh və mübarizlik | | | 2.1.2. | 3.1.2. | | | 1.1.2. | | 3.2.1. | | |
| | 26. | Sülhün carçıları | | | 2.1.1. | | 3.2.2. | 3.3.3. | 1.1.1. | | 3.4.1. | | 2.1.1. |
| | 27. | Nəğməli bahar | 1.1.2. | | 2.1.3. | | | | | | | | 3.1.1. |
| | 28. | Gözəl məkan, Azərbaycan! | | 1.2.3. | 2.1.3. | | | | | | | | 2.1.1. |
| | 29. | Gülməli nağıl | | | 2.1.2. | | 3.2.1. | | 1.2.3. | | 1.1.2. | | |
| | 30. | Hər birimiz bir çiçək | | | 2.1.3. | | | 3.3.3. | | | 1.3.1. | | 3.1.1. |
| | 31. | Güllərin rəqsi | | 1.2.3. | 2.1.3. | | | | | | 1.1.2. | | 4.1.1. |
| | 32. | Bayram günü | | 1.2.2. | 2.1.2. | | | | | | 3.2.1. | | |
| | 33. | Uşaqların nəğməli dünyası | | 1.2.2. | | 3.1.2. | | | 3.1.5. | | | 2.1.1. | |
| | 34. | Musiqi çələngi | | | 2.1.3. | 3.1.3. | | | 3.1.5. | | | | 3.1.1. |

# Tədris proqramının illik planlaşdırma cədvəli

| Dərsin №-si | Standart | Bölmə | Mövzu | Saat | Musiqi repertuarı |
|---|---|---|---|---|---|
| 1. | 1.1.3., 3.3.1. | I. Musiqi aləmi | Gözəl Vətən | 1 | 1. Dinləmək – Azərbaycan Respublikasının Dövlət Himni. Üzeyir Hacıbəyli, Əhməd Cavad;<br>2. Oxumaq – “Gözəl Vətən”. Oqtay Zülfüqarov, Teymur Elçin. |
| 2. | 1.2.3., 2.1.3. | | Musiqili diyar | 1 | 1. Oxumaq – “Gözəl Vətən”. Oqtay Zülfüqarov, Teymur Elçin;<br>2. Rəqs etmək – “Uzundərə” A.x.r.[1] |
| 3. | 1.2.1., 2.1.1. | | Musiqinin xarakteri | 1 | 1. Oxumaq – “Gözəl Vətən”. Oqtay Zülfüqarov, Teymur Elçin;<br>2. Rəqs etmək – “Uzundərə” A.x.r. |
| 4. | 1.1.3., 1.2.1., 2.1.2. | | Marş musiqisi | 1 | 1. Oxumaq – “Nağıl-nəğmə”. Asya Sultanova, Teymur Elçin;<br>2. Dinləmək – “Marş”. Üzeyir Hacıbəyli. |
| 5. | 2.1.3., 3.3.2. | | Tıq-tıq xanımın rəqsi | 1 | 1. Oxumaq – “Nağıl-nəğmə”. Asya Sultanova, Teymur Elçin;<br>2. Rəqs etmək – “Nəlbəki” A.x.r. |
| 6. | 1.2.2., 2.1.2. | | Mahnı, marş, rəqs | 1 | 1. Oxumaq – “Nağıl-nəğmə”. Asya Sultanova, Teymur Elçin;<br>2. Dinləmək – “Marş”. Üzeyir Hacıbəyli;<br>3. Rəqs etmək – “Nəlbəki” A.x.r. |
| 7. | 2.1.1., 3.1.3. | | Doğma yurdumuzun musiqisi | 1 | 1. Oxumaq – “Bayrağım”. Səid Rüstəmov, Cavad Cavadlı; “Gözəl Vətən”. Oqtay Zülfüqarov, Teymur Elçin;<br>2. Dinləmək – Azərbaycan Respublikasının Dövlət Himni. Üzeyir Hacıbəyli, Əhməd Cavad. |
| 8. | 2.1.1., 2.1.3. | | Azərbaycan rəqsləri | 1 | 1. Rəqs etmək – “Nəlbəki” və “Qaytağı” A.x.r. |
| 9. | 2.1.3. | | Musiqili oyunlar | 1 | 1. Oxumaq – “Gözəl Vətən”. Oqtay Zülfüqarov, Teymur Elçin; “Nağıl-nəğmə”. Asya Sultanova, Teymur Elçin; “Bayrağım”. Səid Rüstəmov, Cavad Cavadlı;<br>2. Rəqs etmək – “Uzundərə”, “Nəlbəki” və “Qaytağı” A.x.r. |
| 10. | 2.1.3., 3.3.1. | II. Melodiya | Sehrli Melodiya | 1 | 1. Oxumaq – “Sayıram onacan”. Oqtay Zülfüqarov, Teymur Elçin;<br>2. Rəqs etmək – “Brilyant” A.x.r. |
| 11. | 2.1.3., 3.2.3. | | Musiqi əlifbası | 1 | 1. Oxumaq – “Sayıram onacan”. Oqtay Zülfüqarov, Teymur Elçin;<br>2. Rəqs etmək – “Brilyant” A.x.r. |
| 12. | 2.1.3., 3.2.3. | | Mahnı deyək, rəqs edək | 1 | 1. Dinləmək – “Marş”. Üzeyir Hacıbəyli;<br>2. Oxumaq – “Bax belə!” Oqtay Zülfüqarov, Ramiz Heydər;<br>3. Rəqs etmək – “Yallı” A.x.r. |
| 13. | 2.1.2., 2.1.3., 3.2.3. | | Musiqi nərdivanı | 1 | 1. Oxumaq – “Bax belə!” Oqtay Zülfüqarov, Ramiz Heydər;<br>2. Rəqs etmək – “Yallı” A.x.r. |
| 14. | 1.2.2., 3.1.3. | | Bayram şənliyi | 1 | 1. Oxumaq – Azərbaycan Respublikasının Dövlət Himni. Üzeyir Hacıbəyli, Əhməd Cavad;<br>2. İfa etmək – öyrənilən musiqi əsərləri |
| 15. | 1.2.1., 2.1.3., 3.1.2. | III. Ritm | Zərb musiqi alətləri | 1 | 1. Oxumaq – “Qartopu”. Səid Rüstəmov, Mirmehdi Seyidzadə;<br>2. Rəqs etmək – “Köçəri” A.x.r. |
| 16. | 1.1.1., 1.2.3., 3.1.2. | | Ritmik vurğular | 1 | 1. Oxumaq – “Qartopu”. Səid Rüstəmov, Mirmehdi Seyidzadə;<br>2. Rəqs etmək – “Köçəri” A.x.r. |
| 17. | 2.1.3., 3.1.3. | | Ritmin növləri | 1 | 1. Dinləmək və addımlamaq – “Marş”. Üzeyir Hacıbəyli;<br>2. Oxumaq – “Bayrağım”. Səid Rüstəmov, Cavad Cavadlı; “Gözəl Vətən”. Oqtay Zülfüqarov, Teymur Elçin;<br>3. Rəqs etmək – “Köçəri” və “Qaytağı” A.x.r. |

[1] A.x.r. – Azərbaycan xalq rəqsi

| | | | | | |
|---|---|---|---|---|---|
| 18. | 1.2.3., 2.1.2., 3.1.1. | IV. Melodiya, ritm və temp | Qonaqpərvər dostlar | 1 | 1. Oxumaq – "Qonaqlıq". Oqtay Zülfüqarov, Xanımana Əlibəyli. |
| 19. | 2.1.3., 3.3.2. | | Zil və bəm səslər | 1 | 1. Oxumaq – "Qonaqlıq". Oqtay Zülfüqarov, Xanımana Əlibəyli;<br>2. Rəqs etmək – "Cəngi" A.x.r. |
| 20. | 1.2.1., 2.1.3., 3.3.1. | | Qəhrəmanlıq nəğməsi | 1 | 1. Oxumaq – "Əzizsən, Vətən!". Oqtay Zülfüqarov, Hikmət Ziya;<br>2. Rəqs etmək – "Cəngi" A.x.r. |
| 21. | 1.2.3., 2.1.3. | | Əzizim Vətən | 1 | 1. Oxumaq – "Əzizsən, Vətən!". Oqtay Zülfüqarov, Hikmət Ziya. |
| 22. | 2.1.3., 3.1.2. | | Gəl, gəl, ayaz günləri! | 1 | 1. Oxumaq – "Gəl, gəl, a yaz günləri!" Ağabacı Rzayeva, Mirzə Ələkbər Sabir;<br>2. Rəqs etmək – "Novruzu" A.x.r. |
| 23. | 2.1.3., 3.1.2., 3.1.3. | | Çal, oyna! | 1 | 1. Oxumaq – "Gəl, gəl, a yaz günləri!" Ağabacı Rzayeva, Mirzə Ələkbər Sabir;<br>2. Rəqs etmək – "Novruzu" A.x.r. |
| 24. | 3.1.2., 3.3.1. | | Novruz xonçası | 1 | 1. İfa etmək – öyrənilən musiqi əsərləri. |
| 25. | 2.1.2., 3.1.2. | V. Könül açan nəğmələr | Sülh və mübarizlik | 1 | 1. Dinləmək – "Cəngi". Üzeyir Hacıbəyli;<br>2. Oxumaq – "Göyərçinim". Ağabacı Rzayeva, Mirmehdi Seyidzadə. |
| 26. | 2.1.1., 3.2.2., 3.3.3. | | Sülhün carçıları | 1 | 1. Dinləmək – "Beşik nəğməsi". Üzeyir Hacıbəyli;<br>2. Oxumaq – "Göyərçinim". Ağabacı Rzayeva, Mirmehdi Seyidzadə. |
| 27. | 1.1.2., 2.1.3. | | Nəğməli bahar | 1 | 1. Oxumaq – "Uçun, quşlar!" Səid Rüstəmov, Mirmehdi Seyidzadə;<br>2. Rəqs etmək – "Azərbaycan" A.x.r. |
| 28. | 1.2.3., 2.1.3. | | Gözəl məkan, Azərbaycan! | 1 | 1. Oxumaq – "Uçun, quşlar!" Səid Rüstəmov, Mirmehdi Seyidzadə;<br>2. Rəqs etmək – "Azərbaycan" A.x.r. |
| 29. | 2.1.2., 3.2.1. | | "Gülməli nağıl" | 1 | 1. Dinləmək – "Gülməli nağıl". Oqtay Zülfüqarov, Teymur Elçin;<br>2. Oxumaq – "Çəkicim, vur!" Asya Sultanova, Teymur Elçin. |
| 30. | 2.1.3., 3.3.3. | | Hər birimiz bir çiçək | 1 | 1. Oxumaq – "Bənövşə". Səid Rüstəmov, Abdulla Şaiq;<br>2. Rəqs etmək – "Qızılgül" A.x.r. |
| 31. | 1.2.3., 2.1.3. | | Güllərin rəqsi | 1 | 1. Oxumaq – "Bənövşə". Səid Rüstəmov, Abdulla Şaiq;<br>2. Rəqs etmək – "Azərbaycan" A.x.r. |
| 32. | 1.2.2., 2.1.2. | | Bayram günü | 1 | 1. Dinləmək – "Marş". Üzeyir Hacıbəyli;<br>2. Oxumaq – Azərbaycan Respublikasının Dövlət Himni; "Bayrağım". Səid Rüstəmov, Cavad Cavadlı; "Gözəl Vətən". Oqtay Zülfüqarov, Teymur Elçin;<br>3. Rəqs etmək – "Azərbaycan" A.x.r. |
| 33. | 1.2.2., 3.1.2. | | Uşaqların nəğməli dünyası | 1 | 1. Oxumaq – "Əzizsən, Vətən!" Oqtay Zülfüqarov, Hikmət Ziya;<br>2. Rəqs etmək – "Yallı" A.x.r. |
| 34. | 2.1.3., 3.1.3. | | Musiqi çələngi | 1 | 1. İfa etmək – öyrənilən musiqi əsərləri. |

# I BÖLMƏ. Musiqi aləmi

## 1-ci dərs

**Mövzu:** **Gözəl Vətən**
**Standart:** 1.1.3., 3.3.1.
**Məqsəd:** 1. Azərbaycan Respublikasının Dövlət Himninin və "Gözəl Vətən" mahnısının müəlliflərini tanıyır.
2. "Gözəl Vətən" mahnısını oxuyarkən mahnının ifa qaydalarına riayət edir.
**İnteqrasiya:** Azərb.d.: 1.2.2., H.b.: 2.3.1., 2.4.1.
**İş forması:** kollektiv və fərdi iş
**İş üsulu:** müzakirə, dinləmə, mahnıoxuma, dərsliklə və kartlarla iş
**Resurs:** "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 5), saz və ney musiqi alətlərinin fotoşəkilləri (dərslik səh. 6), Azərbaycan Respublikasının Dövlət Himni və "Gözəl Vətən" mahnısının videoçarxları və ya səsyazmaları, həmin musiqi nümunələrinin şərti şəkilləri və müəlliflərinin portreti (dərslik səh. 71–72)
**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim şagirdlərə müraciət edir:

– Salam, əziz uşaqlar. Siz, yəqin ki, müxtəlif nağıllar eşitmisiniz. Bəs hansı nağıl qəhrəmanlarını tanıyırsınız? (Şagirdlərin cavabları). Bu gün yeni bir nağılla tanış olacağıq. Nağıl "Saz və Ney" adlanır. (Müəllim şagirdləri saz və ney musiqi alətləri ilə tanış edir (dərslik səh. 6). Saz və ney Azərbaycanın milli musiqi alətləridir. Burada isə onlar yeni nağılın əsas qəhrəmanları olacaq.

"Saz və Ney" nağılı musiqili görüşlərdən ibarətdir. Bizim hər bir dərsimiz nağılın bir musiqili görüşündə baş verən hadisələrlə bağlıdır. Bu görüşlərdə biz Saz və Neylə birgə Azərbaycanın musiqi aləmi ilə tanış olacaq, yeni mahnı və rəqslər öyrənəcək, oyunlar keçirəcəyik.

Sonra müəllim "Saz və Ney" nağılını ucadan oxumağa başlayır:

*"Biri var idi, biri yox idi. Sehrli, musiqili bir diyarda Saz və Ney adlı iki mehriban dost yaşayırdı. Onlar başqa nağıl qəhrəmanları ilə tez-tez görüşür, musiqi haqqında söhbətlər edir və bir-birlərinə musiqili hədiyyələr verirdilər.*

*Saz: – Salam, əziz dostlar! Musiqili görüşümüzə xoş gəlmişsiniz. Bugünkü görüşümüzə hamımızın tanıdığı Cırtdan və onun dostları qonaq gəliblər.*

*Cırtdan sevinclə Saz və Neyə deyir: – Salam, dostlar! Biz Vətən haqqında bir mahnı öyrənmişik və sizə həmin mahnını hədiyyə gətirmişik. Mahnı "Gözəl Vətən" adlanır. Onun müəllifləri Oqtay Zülfüqarov və Teymur Elçindir. Mahnı Vətənimizin qayğısız, deyib-gülən uşaqlarını daha gözəl gələcəyə səsləyir.*

*Saz: – Atalar doğru deyib: "Bu dünyada şirin şey bir anadır, bir Vətən". Vətənimiz haqqında çoxlu nağıl, şeir, mahnı və müxtəlif musiqi nümunələri var.*

*Ney: – Təklif edirəm ki, bizim ilk görüşümüzdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilsin. Çünki hər bir ölkəni tərənnüm edən əsas mahnı himndir. Bizim himnimizin müəllifləri Üzeyir Hacıbəyli və Əhməd Cavaddır. Himni dinləyərkən müəyyən qaydalara riayət olunmalıdır.*

*Saz: – **Dostlar, görəsən, musiqini dinləyərkən və ya oxuyarkən niyə qaydalara riayət etmək lazımdır?"***

### II. Fəaliyyət

Müəllim şagirdləri "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" ilə tanış edir. Qaydalar haqqında müzakirə aparılır. Şagirdlərin fikirləri dinlənilir. Müəllim *himn* və *mahnı* anlayışlarını izah edir (dərslik səh. 6), Azərbaycan Respublikasının Dövlət Himnini səsləndirməmişdən əvvəl şagirdləri onun müəllifləri və şərti şəkli (dərslik səh. 71) ilə tanış edir. Sonra himn səsləndirilir (videoçarxı nümayiş etdirilir) və uşaqlar onu ayaq üstə, əlləri sinəsində dinləyirlər.

Müəllim şagirdlərə "Mahnının ifa qaydaları"nı izah edir və onları "Gözəl Vətən" mahnısının müəllifləri və şərti şəkli ilə (dərslik səh. 72) tanış edir. Sonra müəllim mahnını səsləndirir (videoçarxı nümayiş etdirir) və onun bir hissəsini (I bənd və nəqəratı) öyrədir, şagirdlərin diqqətini həmin hissənin təsvirinə (Cırtdanın əlindəki plakatdakı şəkil) yönəldir.

***Tapşırıq 1 (kollektiv iş): İfa qaydalarına riayət edərək mahnının I hissəsini oxuyun.***

Müəllim oxu zamanı müşahidə etdiyi çətinliklər üzərində iş aparır (nəfəsalma, diqqət, ansambl və s.). Sonra 2-ci tapşırığı yerinə yetirmək üçün bəstəkar anlayışını izah edir (dərslik səh. 6).

***Tapşırıq 2 (fərdi iş): Bəstəkarların portretləri ilə mahnıların şərti şəkillərini uyğunlaşdırın və xətlə birləşdirin.***

Müəllim şagirdlərin yerinə yetirdikləri tapşırığın nəticələrini yoxlayır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim dərsin sonunda suallar verir və şagirdlər onları cavablandırırlar: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Bunun üçün nə iş gördük?*

## 2-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Musiqili diyar** |
| **Standart:** | 1.2.3., 2.1.3. |
| **Məqsəd:** | 1. "Gözəl Vətən" mahnısının hissələrini fərqləndirir.<br>2. Azərbaycan rəqs yerişini yerinə yetirir. |
| **İnteqrasiya:** | T.i.: 3.1.1. F.t.: 2.1.1. |
| **İş forması:** | kollektiv, cütlərlə və fərdi iş |
| **İş üsulu:** | müzakirə, rəqsetmə, mahnıoxuma, dərsliklə iş |
| **Resurs:** | "Mahnının ifa qaydaları" və "Musiqi əsərinin dinləmə qaydaları" (dərslik səh. 5), "Azərbaycan rəqs yerişi"nin sxemi (dərslik səh. 9), "Gözəl Vətən" mahnısının və "Uzundərə" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 72 və 80) |

**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Ney: – Ölkəmizi çox gəzib-dolaşmışam, onun gözəlliyinə heyran olmuşam!*

*Cırtdan: – Vətənimizin gözəl guşələrindən biri Qarabağdır. Deyilənə görə, Qarabağda bir dərə var, adı Uzundərədir. "Uzundərə" adlı rəqsimiz də vardır. Bu rəqsin adı  həmin dərənin adı ilə bağlıdır. Saz, biz artıq yola düşməliyik. Amma ilk öncə bu rəqsi öyrənmək istəyərdik.*

*Saz: – Cırtdan, "Uzundərə" rəqsi Azərbaycanın qədim xalq rəqsidir. Bu rəqsin çox incə və həzin melodiyası var. Onu həm cavanlar, həm də yaşlılar ifa edirlər.*

*Ney: – Vətənim mənim! O bizim üçün əzizdir, doğmadır. Cırtdan, gəl əvvəlcə "Gözəl Vətən" mahnısının davamını öyrənək. Bir bax: Saz və mən mahnının sözlərinə aid şəkillər də çəkmişik.* ***Dostlar, görəsən, "Gözəl Vətən" mahnısının sözlərini təsvir edən şəkillər niyə fərqlidir?"***

### II. Fəaliyyət

Müəllim şagirdlərin diqqətini üç molbertdə təsvir olunan şəkillərə yönəldir (dərslik səh. 8) və "Gözəl Vətən" mahnısını səsləndirir (videoçarxı nümayiş etdirir). Sonra müəllim "Mahnının ifa qaydaları"nı (dərslik səh. 5) uşaqların yadına salaraq "Gözəl Vətən" mahnısının II və III hissələrini öyrədir. Mahnı əvvəldən axıra kimi ifa olunur və 1-ci tapşırıq yerinə yetirilir.

***Tapşırıq 1 (fərdi və kollektiv iş): Şəkilləri "Gözəl Vətən" mahnısının hissələri ilə uyğunlaşdırın və onları kiçik dairələrdə ardıcıl nömrələyin.***

Şagirdlərlə mahnının hissələrinə aid şəkillərin nə üçün fərqli olduğu haqqında müzakirə aparılır.

Müəllim "Uzundərə" Azərbaycan xalq rəqsini səsləndirir, şagirdləri onun şərti şəkli ilə (dərslik səh. 80) tanış edir, *rəqs* və *xalq rəqsi* anlayışlarını izah edir. Sonra əl hərəkətlərini (təsvirdə rəqs edən uşaqların əl hərəkətləri, dərslik səh. 9) və Azərbaycan rəqs yerişini öyrədir (dərslik səh. 9). Sxemə görə rəqs yerişini (1-ci, 2-ci və 3-cü hərəkətlərin ardıcıllığını) yerinə yetirmək üçün əvvəlcə sağ, sonra isə sol ayaqla başlamaq lazımdır. Bu növbələşmə qaydası ilə Azərbaycan rəqs yerişi icra olunur.

***Tapşırıq 2 (cütlərlə və kollektiv iş): Şəkildə təsvir olunmuş əl hərəkətlərini və sxemdə verilmiş Azərbaycan rəqs yerişini icra edin.***

Şagirdlərlə mahnı və rəqsin şərti şəkillərinin müxtəlifliyi haqqında müzakirə aparılır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Dərsdə sizin üçün maraqlı nə oldu?*

## 3-cü dərs

| | |
|---|---|
| **Mövzu:** | **Musiqinin xarakteri** |
| **Standart:** | 1.2.1., 2.1.1. |
| **Məqsəd:** | 1. Mahnı və rəqs janrını tanıyır.<br>2. "Gözəl Vətən" mahnısının və "Uzundərə" Azərbaycan xalq rəqsinin xarakterini müəyyən edir. |
| **İnteqrasiya:** | Azərb.d.: 2.1.1., T.i.: 2.1.1. |
| **İş forması:** | kollektiv, böyük qruplarla və fərdi iş |
| **İş üsulu:** | söhbət, müzakirə, mahnıoxuma, rəqsetmə, dərsliklə iş |
| **Resurs:** | "Azərbaycan rəqslərində qızların əl hərəkəti" sxemi (dərslik səh. 11), rəngli karandaşlar, "Gözəl Vətən" mahnısının və "Uzundərə" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 72 və 80) |

**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Cırtdan, artıq bu gün dostlarınla yola çıxırsan. Sizə poçt göyərçinlərini hədiyyə edirik. Ümid edirik ki, göyərçinlər sizdən xoş xəbərlər gətirəcək. Məktublarınızı gözləyəcəyik.*

*Cırtdan: – Hədiyyənizə görə çox sağ olun. Yola düşməzdən əvvəl "Gözəl Vətən" mahnısını və "Uzundərə" rəqsini bir də ifa edək.*

*Ney: – Cırtdan, biz inanırıq ki, öyrəndiyiniz rəqs və vətənpərvər xarakterli mahnı sizə yolda yardımçı olacaq.*

*Saz: – Mahnının xarakteri olur?*

*Ney: – Mahnının da, rəqsin də xarakteri olur.* ***Dostlar, görəsən, "Gözəl Vətən" mahnısının və "Uzundərə" rəqsinin xarakterini necə müəyyən etmək olar?"***

## II. Fəaliyyət

Müəllim yazı lövhəsində *şən* və *qəmli* simaları çəkir və musiqinin xarakteri haqqında söhbət aparır ("Musiqini dinlədikdə və ifa etdikdə onun xarakteri bizim əhvalımıza təsir edir. Məsələn, şən xarakterli musiqi insanda şən hisslər yaradır."). Sonra "Gözəl Vətən" mahnısı səsləndirilir və xorla ifa edilir (kollektiv iş). 1-ci tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini "Musiqidə xarakterin növləri" sxeminə (dərslik səh. 10) yönəldir.

***Tapşırıq 1 (fərdi iş): Mahnının xarakterinə uyğun şarı seçin və rəngləyin.***

Şagirdlərlə bu barədə müzakirə aparılır.

Müəllim sinfin qızlarına sxemdəki əl hərəkətlərini öyrədir (dərslik səh. 11). Sonra müəllim sinfi 2 böyük qrupa bölür və şagirdlərə 2-ci tapşırığın şərtini izah edir: 1-ci dəfə rəqs səslənəndə I qrup rəqs edir, II qrup əl çalmaqla müşayiət edir, rəqs təkrar səsləndiriləndə isə II qrup rəqs edir, I qrup əl çalmaqla onları müşayiət edir.

"Uzundərə" rəqsi səsləndirilir.

***Tapşırıq 2 (böyük qruplarla iş): Rəqsi əl çalmaqla müşayiət edin.***

Sonra müəllim 3-cü tapşırığı yerinə yetirmək üçün şagirdlərin diqqətini dərslikdə verilmiş ağ rəngli şara yönəldir (dərslik səh. 11).

***Tapşırıq 3 (fərdi iş): Ağ şarı "Uzundərə" rəqsinin xarakterinə uyğun rəngləyin.***

Şagirdlərlə onların seçimləri ətrafında müzakirə aparılır.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Öyrəndiyiniz musiqi nümunələri sizə necə təsir etdi?*

# 4-cü dərs

| | |
|---|---|
| **Mövzu:** | **Marş musiqisi** |
| **Standart:** | 1.1.3., 1.2.1., 2.1.2. |
| **Məqsəd:** | 1. "Marş" və "Nağıl-nəğmə" musiqi əsərlərinin müəlliflərini portretlərindən tanıyır.<br>2. Mahnı və marş janrlarını tanıyır.<br>3. Mahnının məzmununu hərəkətləri ilə ifadə edir. |
| **İnteqrasiya:** | Azərb.d.: 1.2.3., H.b.: 1.1.1., F.t.: 2.1.1. |
| **İş forması:** | kollektiv və fərdi iş |
| **İş üsulu:** | oyun, müzakirə, addımatma, dinləmə, xorlaoxuma, dərsliklə iş |
| **Resurs:** | "Nağıl-nəğmə" mahnısı və "Marş" fortepiano pyesinin videoçarxları və ya səsyazmaları, musiqi nümunələrinin müəlliflərinin portreti və şərti şəkilləri (dərslik səh. 72 və 79) |

Dərsin gedişi:

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Dostum Ney! Cırtdan bizə göyərçinlərlə məktub göndərib. Məktubda yazır ki, dostları ilə odun yığıb yollarına davam edir. O həmçinin yazır ki, musiqili məktubla göndərdiyimiz Üzeyir Hacıbəylinin "Marş" əsəri onları addımlamağa həvəsləndirəcək.*

*Ney: – Əlbəttə, Saz, çünki marş addımlamaq, yürüş deməkdir. Marş musiqisindən, adətən, yürüşlərdə istifadə olunur. Bilirsən, marş musiqisi ilə addımlayarkən hərəkətlər daha dəqiq olur.*

*Saz: – Maraqlıdır. Dostlarla birgə bunu yoxlayarıq. Gəlin "Marş"ı dinləyək və ona uyğun addımlayaq: sol-sağ, sol-sağ.*

*Ney: – Saz, Cırtdan məktubunda başlarına gələn həyacanlı hadisə haqqında da yazır. Bu hadisəyə aid bir mahnı da göndərib. Mahnı "Nağıl-nəğmə" adlanır. Məktubda mahnı ilə yanaşı, hadisələri təsvir edən şəkillər də vardır.* ***Dostlar, görəsən, "Nağıl-nəğmə" mahnısını və "Marş" əsərini hərəkətlərlə necə təsvir etmək olar?"***

## II. Fəaliyyət

Müəllim Üzeyir Hacıbəylinin portretini və "Marş" fortepiano pyesinin şərti şəklini nümayiş etdirir (dərslik səh. 79), sonra həmin pyesi səsləndirir. O daha sonra şagirdlərə *marş* anlayışını (dərslik səh. 12), marş edərək addımlamaq qaydasını (sol-sağ, sol-sağ) və 1-ci tapşırığı izah edir.

***Tapşırıq 1 (kollektiv iş): "Marş" əsərinin musiqisinə uyğun addımlayın.***

"Marş" pyesi təkrar səsləndirilir və şagirdlər musiqinin sədaları altında addımlayırlar.

Müəllim Asya Sultanovanın portretini və "Nağıl-nəğmə" mahnısının şərti şəklini nümayiş etdirir (dərslik səh. 72), mahnını səsləndirir və şagirdlərin diqqətini mahnının 3 hissəsinin sözlərini təsvir edən şəkillərə yönəldir (göyərçinləri dimdiyində olan rəsmlər, dərslik səh. 13). Sonra müəllim mahnını öyrədir.

***Tapşırıq 2 (kollektiv iş): İfa zamanı mahnının sözlərini mimika və hərəkətlərlə təsvir edin.***

İfa olunmuş marş və mahnının bəstəkarlarını müəyyən etmək üçün şagirdlər 3-cü tapşırığı yerinə yetirirlər.

***Tapşırıq 3 (fərdi iş): Səsləndirilən marş və mahnının bəstəkarlarının portretlərini kiçik dairələrdə işarələyin.***

Şagirdlərlə marş və rəqsin hərəkətlərlə təsviri haqqında müzakirə aparılır.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Onların müəllifləri kim idi? Bugünkü dərsdə sizə maraqlı olanları söyləyin.*

# 5-ci dərs

| | |
|---|---|
| Mövzu: | **Tıq-tıq xanımın rəqsi** |
| Standart: | 2.1.3., 3.3.2. |
| Məqsəd: | 1. "Nəlbəki" Azərbaycan xalq rəqsində rəqs elementlərini yerinə yetirir.<br>2. Səs imkanlarından istifadə edib "Nağıl-nəğmə" mahnısının obrazlarının xarakterini büruzə verir. |
| İnteqrasiya: | Azərb.d.: 1.2.3., H.b.: 1.1.2. |
| İş forması: | kollektiv, kiçik qruplarla və fərdi iş |
| İş üsulu: | müzakirə, rəqsetmə, mahnıoxuma, səhnələşdirmə, dərsliklə iş |

| | |
|---|---|
| **Resurs:** | "Rəqs elementləri" sxemi (dərslik səh. 9 və 14), "Nağıl-nəğmə" mahnısındakı obrazlara uyğun əşya və ya maskalar, "Nəlbəki" Azərbaycan xalq rəqsinin və "Nağıl-nəğmə" mahnısının videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və musiqi nümunələrinin şərti şəkilləri (dərslik səh. 80 və 72) |

**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Uşaqlar, bizim bugünkü musiqili görüşümüzün qonağı Tıq-tıq xanımdır.*

*Ney: – Tıq-tıq xanım, xoş gəlmisən! Bəs niyə təksən? Siçan bəy haradadır?*

*Tıq-tıq xanım: – Təəssüf ki, dostum Siçan bəy toya getdiyi üçün sizinlə görüşə gələ bilmədi. Amma mənə tapşırdı ki, bura əliboş gəlməyim. Mən də sizə çox sevdiyim "Nəlbəki" rəqsini öyrədəcəyəm. Rəqsim də özüm kimi gözəldir. Ney, sən bilərsən, bu rəqs niyə belə adlanır?*

*Ney: – El şənliklərində ifa olunan bu rəqsi, adətən, qızlar oynayırlar. Rəqs zamanı onlar üsküyü nəlbəkiyə vurmaqla öz ifalarını müşayiət edirlər. Buna görə də bu rəqs belə adlanır.*

*Tıq-tıq xanım: – Afərin! Saz, eşitmişəm ki, Cırtdan və dostları Divi aldadıb qaçıblar. Div də bərk qəzəblənib. Deyib ki, "Eybi yox, Cırtdan və dostlarını yemədim. Axır bir uşağı aldadıb yeyəcəyəm. İnanmıram ki, uşaqların hamısında birlik olsun". Bilirəm, Cırtdan çox ağıllı oğlandır. Ancaq Divə necə qalib gəlmək olar? Axı Div çox böyükdür.*

*Saz: – Rəqs edəndən sonra uşaqlar "Nağıl-nəğmə" mahnısını ifa edəcəklər və sənə hər şey aydın olacaq. **Dostlar, görəsən, "Nağıl-nəğmə" mahnısında baş verən hadisələri və "Nəlbəki" rəqsini necə təsvir etmək olar?"***

### II. Fəaliyyət

Müəllim "Nəlbəki" rəqsinin şərti şəklini (dərslik səh. 80) sinfə nümayiş etdirir. Sonra rəqsi səsləndirir və qızlara "Rəqs elementləri" sxeminə (dərslik səh. 14) uyğun rəqsin hərəkətlərini göstərir. Rəqsi birgə ifa etmək üçün oğlanlar əvvəl öyrəndikləri rəqs hərəkətlərini təkrar edir (dərslik səh. 9). Sonra "Nəlbəki" rəqsi təkrar səsləndirilir.

***Tapşırıq 1 (kollektiv və fərdi iş): Rəqs elementlərini icra edin.***

Müəllim "Nağıl-nəğmə" mahnısını səsləndirir və mahnı təkrar ifa olunur (kollektiv iş). Sonra müəllim mahnıdakı obrazlara uyğun əşya və ya maskaları paylayır. Mahnı təkrar ifa olunur.

***Tapşırıq 2 (kiçik qruplarla iş): İfa qaydalarına riayət etməklə mahnını oxuyun və səhnələşdirin.***

Şagirdlərlə mahnı və rəqsin təsviri haqqında müzakirə aparılır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Bugünkü dərsdə sizə maraqlı olanları söyləyin.*

## 6-cı dərs

| | |
|---|---|
| **Mövzu:** | **Mahnı, marş, rəqs** |
| **Standart:** | 1.2.2., 2.1.2. |
| **Məqsəd:** | 1. Musiqi əsərlərini janrlarına görə fərqləndirir.<br>2. Musiqi əsərlərinin janrına uyğun hərəkətlər edir. |
| **İnteqrasiya:** | Azərb.d.: 1.2.1., F.t.: 2.1.1. |
| **İş forması:** | kollektiv və fərdi iş |
| **İş üsulu:** | müzakirə, dinləmə, rəqsetmə, mahnıoxuma, uyğunlaşdırma, dərsliklə iş |

**Resurs:** "Nəlbəki" Azərbaycan xalq rəqsinin, "Nağıl-nəğmə" mahnısının və "Marş" fortepiano pyesinin videoçarxları və ya səsyazmaları, musiqi nümunələrinin şərti şəkilləri və müəlliflərinin portreti (dərslik səh. 80, 72 və 79)

**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Ney, keçən dəfə mahnı janrına aid "Nağıl-nəğmə" mahnısını öyrənmişdik. Yadındadır, o mahnıda Cırtdanın başına gələn hadisələrdən bəhs olunur. Yeri gəlmişkən, Cırtdandan bir xəbər var? Eşitdiyimə görə, Div öz niyyətindən əl çəkmir. Deyir ki, "tapacam birini, yeyəcəyəm onu".*

*Ney: – Ax, Div. Dostlar, gəlin öyrəndiyimiz musiqi əsərlərini ifa edək. Sonra isə onlarda danışılan əhvalatları müzakirə edək ki, bizi heç kəs aldada bilməsin.*

*Saz: – Musiqili görüşlərimiz çox maraqlı və rəngarəng keçir. Biz görüşlərimizdə müxtəlif musiqi əsərlərini ifa etmişik. Bilirsən, musiqinin üç əsas növü var: mahnı, marş və rəqs. Onları necə ifa edirlər?*

*Ney: – Mahnını oxuyurlar. Marşı addımlayırlar. Rəqsi oynayırlar. Gəlin musiqinin bu üç növünü keçdiyimiz musiqi nümunələri əsasında müqayisə edək.* ***Dostlar, görəsən, əsas musiqi növlərinin oxşar cəhətləri ola bilər?"***

## II. Fəaliyyət

Müəllim dərsi "Nağıl-nəğmə" mahnısı, "Marş" pyesi və "Nəlbəki" rəqsi (üç janr) əsasında qurur. O, musiqinin əsas növləri (janrları) haqqında qısa müzakirə aparır, uşaqları 1-ci tapşırığın şərti ilə tanış edir (dərslik səh. 16).

***Tapşırıq 1 (fərdi iş): Musiqi əsərlərinin şərti şəkilləri ilə uyğun gələn musiqi növlərini (janrlarını) xətlə birləşdirin.***

Müəllim səsaçma məşğələsini keçirir və şagirdlər "Nağıl-nəğmə" mahnısını oxuyurlar.

Şagirdlərin mahnı haqqında təəssüratları müzakirə edilir.

Daha sonra müəllim Üzeyir Hacıbəylinin "Marş" əsərini və "Nəlbəki" Azərbaycan xalq rəqsini səsləndirir, şagirdlər həmin əsərlərin sədaları altında onlara uyğun hərəkət edirlər (addımlayırlar və rəqs edirlər).

***Tapşırıq 2 (kollektiv iş): "Nağıl-nəğmə, "Marş" və "Nəlbəki" musiqi əsərlərini növünə (janrlarına) görə müqayisə edin.***

Sonra mahnı, rəqs, marşın oxşar və fərqli cəhətləri müzakirə olunur.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Səslənən musiqi nümunələrini siz nə zaman ifa edərdiniz?*

# 7-ci dərs

**Mövzu:** **Doğma yurdumuzun musiqisi**
**Standart:** 2.1.1., 3.1.3.
**Məqsəd:** 1. Musiqi əsərlərinin xarakterini müqayisə edir.
2. Mahnıları oxuyarkən ifa qaydalarına riayət edir.
**İnteqrasiya:** H.b.: 2.3.1., F.t.: 1.1.4.
**İş forması:** kollektiv və kiçik qruplarla iş

**İş üsulu:** dinləmə, mahnıoxuma, oyun, dərsliklə iş

**Resurs:** kartlar (Azərbaycan Respublikasının Dövlət Himni, "Gözəl Vətən", "Nağıl-nəğmə" və "Bayrağım" mahnılarının, "Uzundərə" və "Nəlbəki" rəqslərinin şərti şəkilləri), Azərbaycan Respublikasının Dövlət Himni, "Bayrağım", "Gözəl Vətən", "Nağıl-nəğmə" mahnılarının, "Uzundərə" və "Nəlbəki" rəqslərinin videoçarxları və ya səsyazmaları, musiqi nümunələrinin müəlliflərinin portreti və şərti şəkilləri (dərslik səh. 71, 72, 73 və 80)

**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Ney: – Dostlar, Cırtdan uzaqda olsa da, bizi heç unutmayıb. Göyərçinlərlə bir məktub və sehrli torba göndərib. Torbada müxtəlif kartlar var.*

*Saz: – Kartlarda mahnı və rəqslərin təsvirləri var. Dostlar, Cırtdan bizə "Yada sal və ifa et" adlı musiqili oyun keçirmək təklif edir. Bu oyunda həmin kartlardan istifadə edəcəyik.*

*Ney: – Məktubun özü də maraqlıdır. O, musiqilidir. Bu, Cırtdanın bizə mahnı töhfəsidir. Mahnı "Bayrağım" adlanır. Onun musiqisi Səid Rüstəmovun, sözləri isə Cavad Cavadlınındır. Bu mahnı vətənimizin dövlət rəmzlərindən biri olan bayraq haqqındadır.*

*Saz: – Bayraq haqqında himnimizdə belə deyilir: "Üçrəngli bayrağınla məsud yaşa!" Bilirsən, vətənpərvər mahnıları sevən oğlan və qızlarımız çoxdur. Onlar Vətənlə, Vətən isə onlarla fəxr edir. Gəlin "Bayrağım" mahnısını öyrənək. Onun şən xarakteri var.* ***Dostlar, görəsən, niyə musiqi əsərləri müxtəlif xarakterli olur?"***

## II. Fəaliyyət

Müəllim şagirdlərlə səsaçma məşğələsini keçirir. Səid Rüstəmovun portretini və "Bayrağım" mahnısının şərti şəklini (dərslik səh. 73), mahnının I və II bəndinin təsvirlərini (dərslik səh. 18, göyərçinlərin dimdiklərində tutduqları 2 şəkil) sinfə nümayiş etdirir, sonra mahnını səsləndirir və öyrədir.

***Tapşırıq 1 (kollektiv iş): İfa qaydalarına riayət etməklə mahnını oxuyun.***

Sonra müəllim "Musiqi əsərlərinin dinləmə qaydaları"nı şagirdlərin yadına salır və Azərbaycan Respublikasının Dövlət Himnini səsləndirir.

***Tapşırıq 2 (kollektiv iş): Azərbaycan Respublikasının Dövlət Himnini və "Bayrağım" mahnısını xarakterinə görə müqayisə edin.***

Sonra müəllim şagirdlərə "Yada sal və ifa et" adlı oyunun qaydalarını izah edir. Sinif kiçik qruplara bölünür.

**Oyunun qaydaları:** Müəllim sinfin mərkəzində masanın üzərinə içində bir neçə kart olan torba qoyur. Kartların üzərində öyrənilmiş mahnı və rəqslərinin şərti şəkilləri təsvir olunub: "Gözəl Vətən", "Nağıl-nəğmə", "Uzundərə" və "Nəlbəki". Hər qrupdan bir nümayəndə növbə ilə torbadan bir kart götürür. Qruplar kartlardakı təsvirlərə görə (dərslik səh. 19) mahnının adını müəyyənləşdirməli və ondan bir parça ifa etməlidirlər.

***Tapşırıq 3 (kiçik qruplarla iş): Kartlardakı təsvirlərə görə musiqi əsərinin adını müəyyənləşdirin və ondan bir parça ifa edin.***

Müəllim səsləndirilən musiqi əsərlərinin xarakteri haqqında müzakirə aparır.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələrini ifa etdik? Onlar sizdə hansı təəssüratlar yaratdı?*

# 8-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Azərbaycan rəqsləri** |
| **Standart:** | 2.1.1., 2.1.3. |
| **Məqsəd:** | 1. "Qaytağı" və "Nəlbəki" rəqslərini xarakterinə görə müqayisə edir.<br>2. Rəqs elementlərini yerinə yetirir. |
| **İnteqrasiya:** | Azərb.d.: 1.2.1., F.t.: 3.1.1. |
| **İş forması:** | kollektiv və fərdi iş |
| **İş üsulu:** | müzakirə, oyun, dinləmə, rəqsetmə, uyğunlaşdırma, dərsliklə iş |
| **Resurs:** | "Rəqs elementləri" sxemi (dərslik səh. 21), dərslik, rəngli karandaşlar, "Nəlbəki" və "Qaytağı" Azərbaycan xalq rəqslərinin videoçarxları və ya səsyazmaları, həmin rəqslərin şərti şəkilləri (dərslik səh. 80) |

**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Dostlar, bugünkü görüşümüz Azərbaycan rəqslərinə həsr olunub. Azərbaycan xalq rəqsləri xarakterlərinə görə müxtəlifdir. Əvvəlki görüşlərimizdə biz "Uzundərə" və "Nəlbəki" rəqsləri ilə tanış olmuşduq.*

*Tıq-tıq xanım: – Saz, bilirsən, Azərbaycan rəqslərini gözəl ifa etmək üçün nəyi yada salmaq lazımdır? Mən bilirəm, rəqs hərəkətlərini.*

*Ney: – Tıq-tıq xanım, rəqs hərəkətlərini təkrar etmək üçün biz "Nəlbəki" rəqsinin sədaları altında "Hərəkəti yerinə yetir" adlı oyun keçirəcəyik.*

*Saz: – Mən isə sizi "Qaytağı" Azərbaycan xalq rəqsi ilə tanış edəcəyəm. "Qaytağı" rəqsi ifaçıların çevikliyini, gücünü nümayiş etdirir. Bu rəqsin özünəməxsus hərəkətləri var və xarakterinə görə daha çox oğlanlara yaraşır.* ***Dostlar, görəsən, "Nəlbəki" və "Qaytağı" rəqslərində hərəkətlər nəyi ifadə edir?"***

## II. Fəaliyyət

Müəllim "Hərəkəti yerinə yetir" adlı oyunun qaydalarını sinfə izah edir.

**Oyunun qaydaları:** Oyun musiqi sədaları altında əl çalmaqla idarə olunur (1 dəfə – sərbəst gəzmək, 2 dəfə – Azərbaycan rəqs yerişi ilə yerimək, 3 dəfə isə Azərbaycan rəqs yerişinə rəqs əl hərəkətlərini əlavə etmək).

"Nəlbəki" rəqsi səsləndirilir və "Hərəkəti yerinə yetir" oyunu keçirilir.

Müəllim musiqidə "xarakter" anlayışını yada salır və onun növlərini sadalayır ("Musiqidə xarakterin növləri" sxemi. Dərslik səh. 10).

***Tapşırıq 1 (fərdi iş): Ağ şarı "Nəlbəki" rəqsinin xarakterinə uyğun rəngləyin.***

Sonra müəllim "Qaytağı" Azərbaycan xalq rəqsinin videoçarxını nümayiş etdirir.

***Tapşırıq 2 (fərdi iş): Ağ şarı "Qaytağı" rəqsinin xarakterinə uyğun rəngləyin.***

Tapşırıq 1 və 2 yerinə yetirildikdən sonra müzakirə aparılır və şagirdlərin cavabları dinlənilir. Sonra müəllim rəqsin elementlərini oğlanlara öyrədir (dərslik səh. 21).

***Tapşırıq 3 (kollektiv və fərdi iş): Rəqs elementlərini icra edin (oğlanlar) və musiqiyə uyğun əl çalın (qızlar).***

Müəllim şagirdlərlə hər iki rəqsdə hərəkətlərin nəyi ifadə etdiyi barədə müzakirə aparır.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? İfa olunan rəqslərdən hansı daha çox xoşunuza gəldi? Niyə?*

# 9-cu dərs

**Mövzu:** **Musiqili oyunlar**
**Standart:** 2.1.3.
**Məqsəd:** 1. İfa olunan mahnı və rəqslərin musiqisinə uyğun hərəkətlər edir.
**İnteqrasiya:** F.t.: 4.1.1.
**İş forması:** kollektiv iş
**İş üsulu:** oyun, mahnıoxuma, rəqsetmə, dərsliklə iş
**Resurs:** üzərində musiqi nümunələrinin şərti şəkillərinin təsvirləri olan kub (dərslik səh. 22), "Bayrağım", "Gözəl Vətən", "Nağıl-nəğmə" mahnılarının və "Uzun-dərə", "Nəlbəki", "Qaytağı" Azərbaycan xalq rəqslərinin videoçarxları və ya səsyazmaları
**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Dostlar, indiyə qədər musiqili görüşlərimiz maraqlı və səmərəli olub. Burada biz bir-birindən gözəl müxtəlif xarakterli mahnılar oxuyub, rəqslər öyrənib, oyunlar keçirmişik. Gəlin musiqili görüşlərdə öyrəndiklərimizi təkrarlayaq və möhkəmləndirək.*

*Cırtdan: – Uşaqlar, mənim mahnımı birinci oxuyaq!*

*Tıq-tıq xanım: – Narahat olma. Öyrəndiyimiz bütün mahnı və rəqsləri ifa edəcəyik.*

*Ney: – Saz, bir oyun bilirəm. "Musiqili kub" adlanır. Bu oyunu keçirməklə öyrəndiyimiz musiqi nümunələrini təkrar edə bilərik. Oyun zamanı əməkdaşlıq edin və diqqətli olmağı unutmayın.*

*Saz: –* ***Dostlar, görəsən, mahnı və rəqsləri ifa edərkən nəyə diqqət yetirmək lazımdır?"***

## II. Fəaliyyət

Müəllim şagirdlərə "Musiqili kub" oyununun qaydalarını izah edir.

**Oyunun qaydaları:** Bu oyunu keçirmək üçün müəllim kubu əvvəlcədən hazırlamalıdır (dərslik səh. 23). Şagirdlər dairə şəklində düzülür. Onların birinə üzərində musiqi əsərlərinin şərti şəkilləri təsvir olunmuş kub verilir. Şagirdlər musiqi sədaları altında dairə üzrə kubu bir-birinə ötürürlər. Musiqi dayandıqda kub kimin əlində qalarsa, həmin uşaq onu dairənin mərkəzinə atmalıdır. Kubun üst tərəfində olan şəklə görə tapşırıq yerinə yetirilir. Kubun eyni tərəfi düşərsə, o yenidən dairənin mərkəzinə atılır və oyun bu qayda ilə davam edir. Kubun bütün tərəflərində təsvir olunmuş şərti şəkillərə (6 şəkil) görə mahnı və rəqslərdən bir parça ifa olunandan sonra oyun bitir.

**Qeyd:** Mahnının ifası əl çalmaqla müşayiət olunmalıdır.

***Tapşırıq 1 (kollektiv iş): Kubdakı şəkillərə görə mahnının, yaxud rəqsin adını, xarakterini müəyyənləşdirin və ifa edin.***

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Mahnı və rəqsləri ifa edərkən nəyə diqqət yetirdiniz? Dərsdə sizə maraqlı olanları söyləyin.*

# 10-cu dərs

**Mövzu:** **Sehrli Melodiya**
**Standart:** 2.1.3., 3.3.1.
**Məqsəd:** 1. "Sayıram onacan" mahnısını ifa qaydalarına riayət etməklə oxuyur.
2. "Brilyant" rəqsinin musiqisinə uyğun hərəkətlər edir.
**İnteqrasiya:** Riy.: 1.1.1., F.t.: 1.1.4
**İş forması:** kollektiv və fərdi iş
**İş üsulu:** müzakirə, rəqsetmə, mahnıoxuma, uyğunlaşdırma, dərsliklə iş
**Resurs:** keçilmiş musiqi əsərlərinin şərti şəkilləri olan kartlar, "Musiqi ağacı" plakatı (dərslik səh. 24–25), "Rəqs elementləri" sxemi (dərslik səh. 25), "Sayıram onacan" mahnısı, "Brilyant" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səs-yazması, mahnı müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 73 və 80)
**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Ney: – Salam, dostlar. Bugünkü görüşümüzə sehrli Melodiyanı dəvət etmişəm. Melodiya ona görə sehrli adlanır ki, o, səslənən musiqiyə qeyri-adi rəngarənglik verir.*

*Melodiya: – Xoş gördük, dostlar! Eşitmişəm ki, əvvəlki görüşlərinizdə sizə mahnı və rəqs hədiyyələri ediblər. Mənim də sizə hədiyyələrim var. Onlardan biri "Musiqi ağacı"dır. Öyrəndiyiniz mahnı və rəqslərə aid şəkilləri ağacın budaqlarında yerləşdirə bilərsiniz.*

*Ney: – Bilirəm ki, sənin ikinci hədiyyən "Brilyant" Azərbaycan xalq rəqsidir. Bu rəqsin şən və parlaq melodiyası var. Rəqsdə hərəkətlərin ardıcıllığını müəyyən olunmuş qayda ilə yerinə yetirmək lazımdır. Bunun üçün bizə saymaq kömək edəcək. Saymağa aid mahnı da var – "Sayıram onacan".*

*Saz: – Saymağı mən də bacarıram. Bizdə artıq 5 mahnı və 5 rəqsin şərti şəkli var. Bu da sayca 10 oldu! "Sayıram onacan" mahnısı ilə mən sizi tanış edəcəyəm. Mahnının musiqisi Oqtay Zülfüqarovun, sözləri Teymur Elçinindir.* ***Dostlar, görəsən, "Sayıram onacan" mahnısında baş verən hadisələri və "Brilyant" rəqsini necə təsvir etmək olar?"***

## II. Fəaliyyət

Müəllim *melodiya* anlayışını izah edir (dərslik səh. 24), lövhədən "Musiqi ağacı" plakatını (dərslik səh. 24-25) asır və "Sayıram onacan" mahnısının şərti şəklini həmin plakatda yerləşdirir. Sonra şagirdlərin diqqətini mahnının I və II bəndinin təsvirlərinə yönəldir (Sazın tutduğu kitabın 1-ci və 2-ci səhifələri), mahnını səsləndirib öyrədir.

***Tapşırıq 1 (fərdi iş): İfa qaydalarına riayət etməklə mahnını oxuyun.***

Müəllim mahnının ifa qaydaları mövzusunda müzakirə aparır. Sonra "Brilyant" Azərbaycan xalq rəqsinin təsviri olan şəkli "Musiqi ağacı"nda yerləşdirir və şagirdlərin diqqətini dərslikdə verilən "Rəqs elementləri" sxeminə yönəldir (dərslik səh. 9 və 25). Daha sonra rəqsi səsləndirir və onun elementlərini öyrədir.

***Tapşırıq 2 (kollektiv və fərdi iş): Rəqsin elementlərini ardıcıllıqla yerinə yetirin.***

Müəllim rəqsdə hərəkətlərin ardıcıllığı qaydası mövzusunda müzakirə aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Bugünkü dərsdə qaydalarla işləmək sizə necə kömək etdi?*

## 11-ci dərs

| | |
|---|---|
| Mövzu: | **Musiqi əlifbası** |
| Standart: | 2.1.3., 3.2.3. |
| Məqsəd: | 1. İfa zamanı hərəkətlərini "Brilyant" rəqsinin və "Sayıram onacan" mahnısının musiqisinə uyğunlaşdırır.<br>2. Notların adlarını sadalayır. |
| İnteqrasiya: | Azərb.d.: 1.2.3., Riy.: 1.1.1., F. t.: 2.1.1. |
| İş forması: | kollektiv, kiçik qruplarla və fərdi iş |
| İş üsulu: | söhbət, müzakirə, mahnıoxuma, rəqsetmə, oyun, dərsliklə iş |
| Resurs: | notların adları təsvir olunmuş kartlar, "Notları tanı" şeirinin sözləri olan plakat, "Rəqs elementləri" sxemi (dərslik səh. 25), "Sayıram onacan" mahnısı və "Brilyant" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazması, mahnı müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 73 və 80) |
| Dərsin gedişi: | |

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Dostlar, keçən görüşümüzdə "Sayıram onacan" mahnısını və "Brilyant" Azərbaycan xalq rəqsini öyrəndik. Yadınızdadır, bu iki musiqi əsərini ifa edəndə nəyə fikir vermişdik: mahnıda saya, rəqsdə isə hərəkətlərə. Gəlin mahnı və rəqsi təkrarlayaq.*

*Melodiya: – Əvvəlcə sizi köməkçilərimlə tanış etmək istəyirəm. Hamısı buradadır, yeddisi də: do, re, mi, fa, sol, lya, si.*

*Ney: – Bilirəm, bəzən onları musiqi əlifbası da adlandırırlar. Cəmi yeddi not olmasına baxmayaraq, onların sayəsində gör nə qədər musiqi əsəri yaranır.*

*Melodiya: – Gəlin "Notları tanı" adlı oyunu keçirək. Bu oyunda siz notları daha yaxşı tanıyacaqsınız.* ***Dostlar, görəsən, oyunlarda musiqidən necə istifadə etmək olar?"***

### II. Fəaliyyət

Lövhədə üzərində "Notları tanı" şeiri yazılmış plakat asılır. Müəllim şagirdlərə "Notları tanı" adlı oyunun qaydalarını izah edir.

**Oyunun qaydaları:** Müəllim sinfi tərkibində 7 nəfər olmaqla qruplara bölür. Qrupdakı hər şagirdə üzərində bir not adı yazılmış kart paylayır və notun adını söyləyir: "do", "re", "mi" və s. (Əgər qruplarda şagirdlərin sayı 7 nəfərə bölünmürsə, bu zaman bir şagirdə müxtəlif notların adları yazılmış bir neçə kart vermək olar). Sonra müəllim "Notları tanı" şeirini tələsmədən oxumağa başlayır. Şagirdlər səslənən sözlərdə onlara verilmiş kartlardakı notun adını tapmalı və ayağa qalxıb həmin kartı göstərməlidir. Sonda müəllim şeiri bitirdikdən sonra bütün sinif notların adlarını söyləməlidir.

**Notları tanı** *Do, re, mi, fa, sol, lya, si –*
*Bu, notların cərgəsi.*
*Diqqətli ol, sözlərdə*
*Gizlənmişdir not adı:*
*Domino, doqquz, dovşan,*
*Rezin, rejim və reyhan,*
*Milçək, mişar, mikrofon,*
*Fabrik, fara və fayton,*
*Solaxay, Soltan, solmaz,*
*"Brilyant" rəqsindən olmaz.*
*Sirr, siçan, sinif, sima –*
*Bitdi sıramız burda.*

***Tapşırıq 1 (kollektiv iş): Notların adlarını sadalayın.***
Müəllim şagirdlərlə oyun zamanı müəyyən qaydalara əməletmə haqqında söhbət edir. Sonra "Sayıram onacan" mahnısını səsləndirir və sinif mahnını xorla ifa edir.
***Tapşırıq 2 (kiçik qruplarla iş): Mahnının sözlərini əl hərəkətləri ilə təsvir edin.***
Müəllim şagirdlərlə mahnının oyun kimi təqdim olunması haqqında söhbət edir. Sonra "Brilyant" Azərbaycan xalq rəqsini səsləndirir.
***Tapşırıq 3 (kollektiv və fərdi iş): Rəqsin əl hərəkətini və Azərbaycan rəqs yerişini icra edin.***
Müəllim musiqinin oyunlarda rolu haqqında şagirdlərlə söhbət aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələrini yada saldıq? Bugünkü dərsdə xoşunuza gələn nə oldu?*

## 12-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Mahnı deyək, rəqs edək** |
| **Standart:** | 2.1.3., 3.2.3. |
| **Məqsəd:** | 1. "Yallı" rəqsinin hərəkətlərini ardıcıllıqla yerinə yetirir.<br>2. Notların ardıcıllığını tanıyır.<br>3. "Bax belə!" mahnısını oxuyarkən ifa qaydalarına riayət edir. |
| **İnteqrasiya:** | Azərb.d.: 4.1.5., F.t.: 4.1.1. |
| **İş forması:** | kollektiv və fərdi iş |
| **İş üsulu:** | müzakirə, mahnıoxuma, rəqsetmə, oyun, dərsliklə iş |
| **Resurs:** | "Rəqs elementləri" sxemi (dərslik səh. 29); "Musiqi ağacı" plakatı (dərslik səh. 24–25), "Bax belə!" mahnısı və "Yallı" Azərbaycan xalq rəqsinin video-çarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 74 və 80) |
| **Dərsin gedişi:** | |

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:
*"Saz: – Dostlar, mən bilirəm ki, siz tapmacaları çox sevirsiniz. Bayram haqqında bir tapmaca desəm, cavabını tapa bilərsiniz?*

*Uşaqlar çox gözləyir*
*Bu bayramı sevinclə.*
*Küknarı bəzəmişik –*
*Şənlik edin bizimlə!*

Açması?
*Ney: – Tapmacanın açmasını bilirəm. Bu gün həmin bayram haqqında mahnı öyrənəcəyik. Bu, musiqisi Oqtay Zülfüqarovun, sözləri Ramiz Heydərin olan "Bax belə!" mahnısıdır.*
*Melodiya: – Nə gözəl! Bayramlarda çalıb-oynayır, yallı gedirlər. Mən də sizi həmrəyliyin rəmzi olan "Yallı" Azərbaycan xalq rəqsi ilə tanış edəcəyəm. Dostlar, mehriban və həmrəy*

*olmaq çox vacibdir. Notlar arasında da mehribanlıq olanda müxtəlif musiqi nümunələri yaranır, və hamı bundan zövq alır.*

*Ney: – **Dostlar, görəsən, "Bax belə!" mahnısı ilə "Yallı" rəqsinin oxşarlığı nədədir?"***

### II. Fəaliyyət

Müəllim şagirdlərin diqqətini şəkildəki pilləkəndə təsvir olunmuş notlara yönəldir (dərslik səh. 28) və 1-ci tapşırığın şərtlərini izah edir.

***Tapşırıq 1 (kollektiv iş): Şəkildəki notları verilmiş ardıcıllıqla oxuyun.***

Müəllim "Bax belə!" mahnısına və "Yallı" Azərbaycan xalq rəqsinə aid şərti şəkilləri "Musiqi ağacı"nda yerləşdirir. Sonra mahnını səsləndirir, şagirdlərin diqqətini mahnının I hissəsinə aid olan təsvirə yönəldir ("buludun" içində küknar ağacı ətrafında uşaqlar, dərslik səh. 28) və I hissəsini öyrədir.

***Tapşırıq 2 (kollektiv iş): İfa qaydalarına riayət edərək mahnının birinci hissəsini oxuyun.***

Müəllim şagirdlərin diqqətini dərslikdə verilən "Rəqs elementləri" sxeminə yönəldir (dərslik səh. 29), rəqsi səsləndirir və onun elementlərini öyrədir.

***Tapşırıq 3 (kollektiv və fərdi iş): Rəqs elementlərini ardıcıllıqla icra edin.***

Müəllim dərsdə ifa olunmuş mahnı və rəqsin oxşar cəhətləri barədə müzakirə aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Həmin musiqi əsərləri sizə necə təsir etdi?*

## 13-cü dərs

| | |
|---|---|
| **Mövzu:** | **Musiqi nərdivanı** |
| **Standart:** | 2.1.2., 2.1.3., 3.2.3. |
| **Məqsəd:** | 1. "Bax belə!" mahnısını ifadəli oxuyur.<br>2. "Yallı" rəqsində hərəkətləri mənimsədiyini nümayiş etdirir.<br>3. "Do–si" notları ardıcıl olaraq oxuyur. |
| **İnteqrasiya:** | Azərb.d.: 4.1.4., F.t.: 4.1.1. |
| **İş forması:** | kollektiv və fərdi iş |
| **İş üsulu:** | müzakirə, mahnıoxuma, rəqsetmə, oyun, dərsliklə iş |
| **Resurs:** | "Rəqs elementləri" sxemi (dərslik səh. 29) və "Yallı" rəqsində düzülüş (dərslik səh. 31) sxemləri, "Bax belə!" mahnısı və "Yallı" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 74 və 80) |

**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Dostlar, keçən görüşümüzdə öyrəndiyimiz "Bax belə!" mahnısı mənə "Yallı" rəqsini xatırlatdı. Bu gün mahnının davamını öyrənək və yallı gedək.*

*Melodiya: – Bilirsiniz, "Yallı" ən qədim Azərbaycan rəqslərindən biridir. Ney, arxadakı qayaüstü təsvirə bax. O, "Yallı" rəqsindəki hərəkətlərə bənzəyir.*

*Ney: – Dostlar, "hərəkət" dediniz, yadıma notların şıltaqlığı düşdü. "Notları tanı" adlı oyunu keçirəndə notlar çox hərəkət etdi, nərdivanla o qədər yuxarı və aşağı qaçdılar ki, yerlərini qarışdırdılar. İndi isə xahiş edirlər, biz onları yerlərinə qaytaraq.*

*Saz: – Çox yaxşı, sonra mahnı oxuyub, rəqs edərik.* ***Dostlar, görəsən, "Bax belə" mahnısında baş verən hadisələri və "Yallı" rəqsini hansı hərəkətlərlə təsvir etmək olar?"***

## II. Fəaliyyət

Müəllim şagirdlərlə "do, re, mi, fa, sol, lya, si" notlarını ardıcıl oxuyaraq səsaçma məşğələsini keçirir və notların yuxarı istiqamətdə hərəkətini göstərir. Sonra 1-ci tapşırığı yerinə yetirmək üçün şagirdlərin diqqətini pilləkəndəki notların təsvirinə (dərslik səh. 30) yönəldir.

***Tapşırıq 1 (fərdi və kollektiv iş): Şəkildəki notları kiçik dairələrdə düzgün ardıcıllıqla nömrələyin.***

Müəllim "Bax belə!" mahnısının II hissəsini öyrədir və mahnı tam şəkildə ifa olunur.

***Tapşırıq 2 (kollektiv iş): Mahnının sözlərini əl hərəkətləri ilə təsvir edin.***

Müəllim şagirdlərlə "Yallı" rəqsinin hərəkətlərini (dərslik səh. 29) təkrarlayır, sonra "Yallı" rəqsində düzülüş sxemi"ni (dərslik səh. 31) izah edir. Şagirdlər həmin sxemə uyğun düzülür və rəqs səsləndirilir.

***Tapşırıq 3 (kollektiv iş): Rəqsin elementlərini sxemə uyğun yerinə yetirin.***

Müəllim dərsdə ifa olunmuş mahnı və rəqsdə edilən hərəkətlər barədə müzakirə aparır.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Dərsdə hansı musiqi nümunələri səsləndi? Onları öyrənmək üçün nə etdik?*

# 14-cü dərs

| | |
|---|---|
| **Mövzu:** | **Bayram şənliyi** |
| **Standart:** | 1.2.2., 3.1.3. |
| **Məqsəd:** | 1. Musiqi əsərlərini xarakterinə uyğun ifa edir.<br>2. Mahnıları oxuyarkən ifa qaydalarına riayət edir. |
| **İnteqrasiya:** | H.b.: 2.1.2., F.t.: 4.1.1. |
| **İş forması:** | kollektiv və kiçik qruplarla iş |
| **İş üsulu:** | müzakirə, mahnıoxuma, rəqsetmə, dərsliklə iş |
| **Resurs:** | "Musiqi ağacı" plakatı, musiqi nümunələrinin şərti şəkilləri olan kartlar, səslənəcək musiqi əsərlərinin videoçarxları və ya səsyazmaları |
| **Dərsin gedişi:** | |

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Melodiya: – Dostlar, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bu bayram günündə Azərbaycan Respublikasının Dövlət Himninin xüsusi yeri var. O bizim dövlətimizin rəmzlərindən biridir.*

*Saz: – Hər bir azərbaycanlı, harada yaşamasından asılı olmayaraq, himnimizi bilməli və ona hörmət etməlidir. Yadda saxlayaq ki, himnin nə sözlərinə bir heca, nə də musiqisinə bir not artırmaq, yaxud ixtisar etmək olmaz.*

*Ney: – Dostlar, Həmrəylik Günü Azərbaycanda və dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız tərəfindən təntənəli şəkildə qeyd olunur. Bu tarixi gün Yeni il bayramına təsadüf edir. Bayram ovqatı yaratmaq üçün bu görüşümüzə Şaxta babanı dəvət etmişik.*

*Şaxta baba: – Salam, əziz uşaqlar! Sizin görüşünüzə gəlmək üçün çox ölkələr gəzmişəm, dağları dolaşıb dərələrdən keçmişəm. Yeni il yeni arzularla gəlir. Dostlar, bayram şənliyini keçirək, mahnı və rəqsləri ifa edək.*

*Cırtdan: – Birlik və həmrəyliyi qoruyun. Şənliyimizi təntənəli Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlayaq, sonda isə həmrəylik rəmzi olan "Yallı" rəqsi ilə bitirək.* ***Dostlar, görəsən, bayramda mahnı və rəqsləri necə ifa etmək lazımdır?"***

## II. Fəaliyyət

Müəllim Azərbaycan Respublikasının Dövlət Himnini səsləndirir və öyrədir.

***Tapşırıq 1 (kollektiv iş): İfa qaydalarına riayət edərək himni oxuyun.***

Bayram şənliyi keçirmək üçün müəllim tədris ilinin əvvəlindən indiyə qədər öyrəndikləri musiqi nümunələrinə istinad edir. Həmin musiqi əsərlərinin şərti şəkilləri "Musiqi ağacı" plakatında qabaqcadan yerləşdirilmişdir. Sinif qruplara bölünür. Hər qrupdan bir nümayəndəyə "Musiqi ağacı"nda yerləşdirilmiş bir mahnı və bir rəqsin şərti şəklini götürmək təklif edilir.

***Tapşırıq 2 (kollektiv və kiçik qruplarla iş): Əvvəlki dərslərdə öyrənilmiş musiqi əsərlərini xarakterlərinə uyğun ifa edin.***

Sonda müəllim şagirdlərlə bayramda mahnı və rəqslərin necə ifa olunduğu barədə kiçik müzakirə təşkil edir və sinif "Yallı" rəqsini ifa edir.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Həmrəyliyi daha harada nümayiş etdirirsiniz?*

# 15-ci dərs

**Mövzu:** **Zərb musiqi alətləri**
**Standart:** 1.2.1., 2.1.3., 3.1.2.
**Məqsəd:** 1. Melodiya və ritm musiqi ifadə vasitələrini tanıyır.
2. "Köçəri" Azərbaycan xalq rəqsində rəqs hərəkətlərini mənimsədiyini nümayiş etdirir.
3. "Qartopu" mahnısının ritmini tutur.
**İnteqrasiya:** Azərb. d.: 4.1.5., F.t.: 2.1.1.
**İş forması:** kollektiv və fərdi iş
**İş üsulu:** mahnıoxuma, rəqsetmə, ritmtutma, dərsliklə iş
**Resurs:** zərb musiqi alətləri, "Rəqs elementləri" sxemi (dərslik səh. 35), "Qartopu" mahnısı və "Köçəri" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və musiqi nümunələrinin şərti şəkilləri (dərslik səh. 74 və 80)
**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:
*"Saz: – Dostlar, bilirsiniz, bizi əhatə edən hər şeyin ritmi var – ürək döyüntüsündən tutmuş addım səsinə qədər. Bu gün yaxın dostum Ritmi və zərb musiqi alətlərini görüşümüzə dəvət etmişəm.*
*Ritm: – Salam, dostlar. Görüşünüzə köməkçilərimlə gəlmişəm – nağara, şaxşax, dəf, zəng.*
*Melodiya: – Mahnı və rəqslər oxşar və ya fərqli ritmli olur. Məsələn, "Köçəri" və "Yallı" rəqsləri ritm və xarakterinə görə bir-birinə bənzəyir.*
*Ney: – Baxın, Sazla birlikdə qar adamı düzəltmişik. Onun topalarında "Qartopu" mahnısının bənd və nəqəratını təsvir etmişik. Gəlin "Qartopu" mahnısının xarakteri və ritmi ilə tanış olaq.*
*Melodiya: –* ***Dostlar, görəsən, musiqinin ritmi ilə xarakteri arasında əlaqə var?"***

## II. Fəaliyyət

Müəllim *bənd* və *nəqərat* anlayışlarını izah edir: bənd – mahnıda musiqisi dəyişilməyən, sözləri isə dəyişilən hissədir, nəqərat – musiqisi və sözləri dəyişilməyən hissədir (dərslik səh. 34). Sonra "Qartopu" mahnısının şərti şəklini (dərslik səh. 74) nümayiş etdirir, onun I bəndin və nəqəratının təsvirlərini göstərir *(qar adamının yuxarıdakı topasında mahnının bəndinin, aşağıdakı topasında isə nəqəratın sözləri təsvir olunub)*, həmin mahnını səsləndirib I bənd və nəqəratı öyrədir. Müəllim *ritm* və *zərb musiqi alətləri* (nağara, şaxşax, zəng və dəf) anlayışlarını (dərslik səh. 34) izah edir, onlarda ifa etmə qaydalarını nümayiş etdirir və həmin alətləri şagirdlərə paylayır.
***Tapşırıq 1 (kollektiv və fərdi iş): Mahnının birinci bənd və nəqəratının ritmini tutun.***
Müəllim "Köçəri" rəqsinin şərti şəklini (dərslik səh. 80) nümayiş etdirir və bu rəqs haqqında qısa məlumat verir: "Köçəri" rəqsi hərəkətlərinə görə "Yallı" rəqsini xatırlatsa da, onun fərqli rəqs elementləri var – "Yallı" rəqsindəki yaylıq "Köçəri"də çubuqla əvəz olunur (dərsdə rəqsin ifası zamanı çubuqdan istifadə etmək məsləhət deyil). Sonra müəllim "Köçəri" rəqsini səsləndirir və onun elementlərini öyrədir (dərslik səh. 35).
***Tapşırıq 2 (kollektiv iş): Rəqsin elementlərini ardıcıllıqla yerinə yetirin.***
Müəllim şagirdlərlə "Qartopu" mahnısı və "Köçəri" rəqsinin əsasında musiqinin ritmi ilə onun xarakteri arasında oxşarlıq barədə müzakirə aparır.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Dərsdə maraqlı olan nə idi?*

# 16-cı dərs

**Mövzu:** **Ritmik vurğular**
**Standart:** 1.1.1., 1.2.3., 3.1.2.
**Məqsəd:** 1. "Qartopu" mahnısının müəlliflərini tanıyır.
2. "Qartopu" mahnısının bənd və nəqəratını fərqləndirir.
3. Müxtəlif ritmləri mənimsədiyini nümayiş etdirir.
**İnteqrasiya:** Azərb.d.: 4.1.5., F.t.: 2.1.1.
**İş forması:** kollektiv, kiçik qruplarla və fərdi iş
**İş üsulu:** müzakirə, mahnıoxuma, rəqsetmə, musiqi alətlərində çalma, dərsliklə iş
**Resurs:** "Rəqs elementləri" (dərslik səh. 35) və "Qartopu" mahnısının quruluş sxemləri (dərslik səh. 36), ritm cədvəli (dərslik səh. 37), zərb musiqi alətləri, "Qartopu" mahnısı və "Köçəri" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və musiqi nümunələrinin şərti şəkilləri (dərslik səh. 74 və 80)
**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Ney: – Saz, "Köçəri" rəqsi xalqımızın məşhur rəqslərindən biridir. Bu gün həmin rəqsi və "Qartopu" mahnısını ifa edəcəyik.*

*Saz: – Bilirsən, mən qartopu oynamağı çox sevirəm.*

*Gəlin bu meydançada*
*Biz oynayaq qartopu.*

*Ney: – Bu gün düzəltdiyimiz qar adamının topalarında mahnının II bənd və nəqəratının sözlərini təsvir etmişik. Gəlin "Qartopu" mahnısının II bəndini öyrənək, nəqəratın isə ritmini tutaq.* ***Dostlar, görəsən, "Qartopu" mahnısının və "Köçəri" rəqsinin ritmini necə tutmaq olar?"***

## II. Fəaliyyət

Müəllim "Qartopu" mahnısının I və II bəndlərinin (yuxarıdakı topaları), həmçinin nəqəratının (aşağıdakı topaları) təsvirlərini göstərir. Sonra həmin təsvirləri "Qartopu" mahnısının quruluş sxemi (dərslik səh. 36) ilə əlaqələndirərək onu izah edir: verilmiş sxemdə bəndlər dairə ilə, nəqərat isə kvadratla verilib. (Bənd eyni fiqurla (dairədə) təsvir olunaraq rəngini (bəndin sözləri) dəyişir, nəqərat isə eyni fiqurla (kvadratla) təsvir olunaraq rəngini (nəqəratın sözləri) dəyişmir). Müəllim mahnının II bəndini öyrədir, sonra şagirdlər "Qartopu" mahnısını əvvəldən axıradək oxuyub 1-ci tapşırığı yerinə yetirirlər.

***Tapşırıq 1 (kollektiv iş): "Mahnını ifadəli oxuyun və əl çalmaqla nəqəratının ritmini tutun.***

Müəllim "Qartopu" və "Bax belə!" mahnıların xarakteri və ritmi haqqında söhbət aparır.

***Tapşırıq 2 (fərdi iş): Bəstəkarların portretləri ilə mahnıların şərti şəkillərini uyğunlaşdırın və xətlə birləşdirin.***

Sonra müəllim 3-cü tapşırığı yerinə yetirmək üçün sinfi dörd qrupa bölür. Hər qrupa zərb musiqi alətləri paylanır: I qrupa şaxşaxlar, II qrupa nağaralar, III qrupa dəflər, IV qrupa zənglər. (Həmin alətlər olmadıqda onları başqaları ilə və ya əl çalmaqla əvəz etmək olar.) Müəllim şagirdlərin diqqətini cədvələ yönəldir (dərslik səh. 37) və ondan necə istifadə edəcəklərini izah edir. Sonra "Köçəri" rəqsini səsləndirir.

***Tapşırıq 3 (kiçik qruplarla iş): Verilmiş zərb musiqi alətləri ilə "Köçəri" rəqsinin cədvələ uyğun ritmini göstərin***.

Müəllim "Köçəri" rəqsini təkrar səsləndirir və şagirdlər onu ifa edirlər. Sonra şagirdlərlə musiqi əsərlərinin ritmini hansı üsullarla tutduqları barədə müzakirə aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Dərsdə tanış olduğunuz musiqi əsərlərinin müəllifləri kimdir? Ritmik vurğulara daha harada rast gəlmisiniz?*

## 17-ci dərs

**Mövzu:** **Ritmin növləri**
**Standart** 2.1.3., 3.1.3.
**Məqsəd:** 1. Mahnıların məzmununu hərəkətlərlə büruzə verir.
2. Musiqi nümunələrinin ritmini müxtəlif vasitələrlə tutur.
**İnteqrasiya:** Azərb.d.: 1.2.3., F.t.: 4.1.1.
**İş forması:** kollektiv, kiçik qruplarla və fərdi iş
**İş üsulu:** müzakirə, mahnıoxuma, rəqsetmə, dinləmə, musiqi alətlərində çalma, oyun, dərsliklə iş
**Resurs:** "Mahnının ifa qaydaları" (dərslik səh. 5), zərb musiqi alətləri, üzərində ritmik müşayiət növünün təsviri olan kub (dərslik səh. 38), "Musiqi ağacı"nda şərti şəkillərə uyğun olan (dərslik səh. 38–39) musiqi nümunələrinin videoçarxları və ya səsyazmaları
**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Ney: – Saz, biz musiqili görüşlərimizdə ritm haqqında çox şey öyrəndik.*

*Saz: – Doğrudur. Müxtəlif ritmli mahnı və rəqsləri öyrəndik, oyunlar da keçirdik. Melodiya və Ritmdən xahiş edək, bizimlə yeni bir oyun keçirsinlər.*

*Melodiya: – Sizi "Tap və ifa et" adlı oyunla tanış edəcəyəm. Ümid edirəm ki, fəal iştirak edəcəksiniz.*

*Ritm: – Dostlar, oyun zamanı "Musiqi ağacı"nda yerləşdirilmiş şərti şəkillər öyrəndiyimiz musiqi nümunələrini xatırladacaq.*

*Ney: – Bu oyunda müxtəlif ritmli musiqi nümunələri səslənəcək.* ***Dostlar, görəsən, müxtəlif ritmli musiqi əsərlərinin oxşarlığı nədədir?"***

### II. Fəaliyyət

Müəllim "Tap və ifa et" oyununu keçirmək üçün onun qaydalarını izah edir.

**Oyunun qaydaları:** Müəllim sinfi 6 qrupa bölür. Hər qrupdan bir nümayəndə növbə ilə kubu öz masasının üzərinə atır. Kubun üst tərəfində olan şəklə görə həmin qrup müşayiət növünü seçmiş olur. Zərb musiqi alətləri müəyyən olunmuş qruplara həmin alətlər paylanır. Müəllim növbə ilə hər qrupa yaxınlaşıb onlara "Musiqi ağacı"nda (dərslik səh. 38–39) olan bir şərti şəkli təqdim edir. Qrupun üzvləri şərti şəklə görə musiqi əsərinin adının tapmalıdır. Sonra həmin əsərdən bir parça səsləndirilir.

**Qeyd:** Bu oyunu keçirmək üçün müəllim kubu (dərslik səh. 38) əvvəlcədən hazırlamalıdır.

***Tapşırıq 1 (kiçik qruplarla iş): Müəyyən olunmuş müşayiət növünə görə səslənən musiqi nümunələrinin ritmini tutun.***

Müəllim "Mahnının ifa qaydaları"nı (dərslik səh. 5) yada salır. Sonra şagirdlər "Gözəl Vətən" və "Bayrağım" mahnılarını ifa edirlər.

***Tapşırıq 2 (kollektiv iş): Mahnıları xorla oxuyarkən ifa qaydalarına riayət edin.***

Müəllim şagirdlərlə dərsdə səslənən müxtəlif ritmli musiqi əsərlərinin oxşarlığı barədə kiçik müzakirə aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Yeni nə öyrəndik? Dərsdə daha çox xoşunuza gələn nə oldu?*

# 18-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Qonaqpərvər dostlar** |
| **Standart:** | 1.2.3., 2.1.2., 3.1.1. |
| **Məqsəd:** | 1. "Qonaqlıq" mahnısının bəndlərini bir-birindən fərqləndirir.<br>2. Səhnəcikdə mahnının məzmununu mimika və jestləri ilə büruzə verir.<br>3. "Qonaqlıq" mahnısının melodiyasını müəllimin göstərişi ilə ifa edir. |
| **İnteqrasiya:** | Azərb.d.: 1.2.3., H.b.: 1.1.2. |
| **İş forması:** | kollektiv və kiçik qruplarla iş |
| **İş üsulu:** | müzakirə, dinləmə, mahnıoxuma, səhnələşdirmə, dərsliklə iş |
| **Resurs:** | Mahnıdakı obrazlara aid əşya və ya maskalar (dərslik səh. 41), "Qonaqlıq" mahnısının quruluş sxemi (dərslik səh. 40), "Qonaqlıq" mahnısının videoçarxı və ya səsyazması, mahnı müəlliflərinin portreti və şərti şəkli (dərslik səh. 75) |
| **Dərsin gedişi:** | |

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Ney: – Dostlar, nə yaxşı ki musiqili görüşlərimiz var. Görüşlər bir-birimizi yaxından tanımağımıza, mehriban olmağımıza kömək edir. Bizim bugünkü görüşümüzün qonağı gülərüzlü Naznazdır!*

*Saz: – Naznaz, xoş gəlmisən! Hamı sənin qonaqpərvərliyindən danışır. Deyirlər ki, sən bu haqda mahnı da bilirsən.*

*Naznaz: – Bəli. Mən qonaq qəbul etməyi və qonaq getməyi çox sevirəm. Eşitdiyimə görə, görüşlərinizə gələn qonaqlar sizə musiqili hədiyyələr gətirir. Mənim də sizə mahnı hədiyyəm var.*

*Ney: – Maraqlıdır, bu mahnı necə adlanır?*

*Naznaz: – "Qonaqlıq". Musiqisi Oqtay Zülfüqarovun, sözləri isə Xanımana Əlibəylinindir. Mahnıdakı qonaqlığı şəkillərdə də təsvir etmişəm.*

*Saz: – Naznaz, qutunda nə var?*

*Naznaz: – Oyuncaqlardır, mahnının qəhrəmanları: dovşan, keçi, qaz, dəvə və xoruz. Mən oyuncaqlarımla bu mahnını oxuyub səhnələşdirməyi də xoşlayıram.*

*Saz: –* ***Dostlar, görəsən, "Qonaqlıq" mahnısının qəhrəmanlarının xarakterini necə təsvir etmək olar?"***

## II. Fəaliyyət

Müəllim "Qonaqlıq" mahnısının melodiyası əsasında vokal təmrini keçirir.

***Tapşırıq 1 (kollektiv iş): Müəllimin göstərişi ilə mahnının bir parçasını "la" hecası ilə oxuyun.***

Müəllim nəqəratı olmayan mahnılar haqqında məlumat verir və "Qonaqlıq" mahnısının quruluş sxemini (dərslik səh. 40) izah edir, sonra mahnını öyrədir.

***Tapşırıq 2 (kollektiv iş): Şəkilləri "Qonaqlıq" mahnısının bəndləri ilə uyğunlaşdırın və onları ardıcıl nömrələyin.***

Müəllim tapşırığın nəticələrini şagirdlərlə müzakirə edir.

Sinif 4 qrupa bölünür. Hər qrupa mahnıdakı obrazlara aid əşya və ya əvvəlcədən hazırlanmış maskalar paylanır (dərslik səh. 41).

***Tapşırıq 3 (kiçik qruplarla iş): Mahnını ifadəli oxuyun və səhnələşdirin.***

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunəsi ilə tanış olduq? Öyrəndiyiniz mahnılardan daha hansını səhnələşdirərdiniz?*

# 19-cu dərs

| | |
|---|---|
| Mövzu: | **Zil və bəm səslər** |
| Standart: | 2.1.3., 3.3.2. |
| Məqsəd: | 1. "Cəngi" rəqsində rəqs hərəkətlərini mənimsədiyini nümayiş etdirir.<br>2. Səs imkanlarından istifadə edib "Qonaqlıq" mahnısının melodiyasının zil və bəm səslərini oxuyur. |
| İnteqrasiya: | H.b.: 2.1.1., F.t.: 4.1.1. |
| İş forması: | kollektiv və fərdi iş |
| İş üsulu: | müzakirə, mahnıoxuma, rəqsetmə, dərsliklə iş |
| Resurs: | "Musiqili pilləkən" plakatı və "Melodiyanın hərəkəti" sxemi (dərslik səh. 42), "Rəqs elementləri" sxemi (dərslik səh. 43), "Qonaqlıq" mahnısının və "Cəngi" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 75 və 80) |
| Dərsin gedişi: | |

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Uzaqdan musiqi sədaları eşidilir.*

*Saz: – Ney, musiqini eşidirsən? Bu, "Cəngi" Azərbaycan xalq rəqsinin melodiyasıdır. Rəqs olsa da, musiqisi marşa bənzəyir.*

*Ney: – Çox əzəmətli musiqidir. O, igid yerişini, döyüşə çağırışı xatırladır.*

*Saz: – Mən sizə bu rəqsi öyrədərəm. Təəssüf ki, Naznaz başqa bir qonaqlığa tələsir. Gəlin Naznazla sağollaşmamışdan əvvəl "Qonaqlıq" mahnısını bir də oxuyaq. Bu mahnının da, bütün musiqi əsərlərindəki kimi, zil və bəm səsləri var.*

*Naznaz: –* ***Dostlar, görəsən, zil və bəm səslər olmasaydı, musiqi necə olardı?****"*

### II. Fəaliyyət

Müəllim musiqinin zil və bəm səsləri haqqında məlumat verir: yuxarı səslər aşağı səslərə görə zil, aşağı səslər isə yuxarı səslərə görə bəmdir. Sonra şagirdlərin diqqətini "Melodiyanın hərəkəti" sxemində olan "pilləkənə" yönəldib (dərslik səh. 42) onu izah edir: notlar nə qədər yüksək pillədə yerləşsə, bir o qədər zil səslənəcək. Müəllim öz izahatını əyani olaraq əl hərəkətləri ilə də göstərməklə tamamlayır: melodiya zilə çıxanda əli yuxarı qaldırır, bəmə düşəndə aşağı endirir.

Sonra müəllim 1-ci tapşırığı yerinə yetirmək üçün şagirdlərin diqqətini "Melodiyanın hərəkəti" sxeminə (dərslik səh. 42) yönəldir və "Qonaqlıq" mahnısından bir parça (bəndin ilk 2 misrası) səsləndirir.

***Tapşırıq 1 (kollektiv iş): Notları adları ilə oxuyun və melodiyanı əl hərəkətləri ilə sxemə görə təsvir edin.***

Sonra mahnı əvvəldən axıradək ifa olunur. Müəllim "Cəngi" rəqsi haqqında qısa məlumat verir və onun elementlərini öyrədir (dərslik səh. 43).

***Tapşırıq 2 (kollektiv və fərdi iş): Rəqsin elementlərini ardıcıllıqla yerinə yetirin.***
Müəllim şagirdlərlə musiqidə zil və bəm səslər haqqında kiçik müzakirə aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Bunun üçün nə iş gördük?*

## 20-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Qəhrəmanlıq nəğməsi** |
| **Standart:** | 1.2.1., 2.1.3., 3.3.1. |
| **Məqsəd:** | 1. Temp musiqi ifadə vasitəsini tanıyır.<br>2. "Cəngi" rəqsini tempinə uyğun ifa edir.<br>3. "Əzizsən, Vətən!" mahnısını ifa qaydalarına uyğun oxuyur. |
| **İnteqrasiya:** | Azərb.d.: 2.2.4., H.b.: 1.1.2., F.t.: 3.1.1. |
| **İş forması:** | kollektiv və fərdi iş |
| **İş üsulu:** | müzakirə, söhbət, mahnıoxuma, rəqsetmə, oyun, dərsliklə iş |
| **Resurs:** | "Gəzinti" mətni, oyunçuların sayına görə musiqi alətləri (şaxşax, nağara, dəf və zəng), "Tempin növləri" sxemi (dərslik səh. 44), "Əzizsən, Vətən!" mahnısı və "Cəngi" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, musiqi nümunələrinin müəlliflərinin portreti və şərti şəkilləri (dərslik səh. 78 və 80) |
| **Dərsin gedişi:** | |

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Dostlar, bugünkü görüşümüzə gələrkən yolda qarşıma tısbağa, inək və at çıxdı. Onların müxtəlif hərəkət sürəti mənim diqqətimi cəlb etdi. Görəsən, musiqidə də sürət var?*

*Melodiya: – Bəli, var. Musiqidə sürət temp adlanır. Dostum Temp bugünkü görüşümüzün qonağıdır.*

*Temp: – Salam, dostlar. Musiqini xarakterinə görə müxtəlif sürətlə ifa etmək olar. Qarşılaşdığınız heyvanların hərəkət sürətini də musiqidə sürətin üç əsas növünə bənzətmək olar: asta, orta və tez. Bu üç növü daha yaxşı mənimsəmək üçün gəlin bir oyun keçirək.*

*Saz: – Çox yaxşı, tempin növlərini bu gün səslənən "Cəngi" rəqsinin və "Əzizsən, Vətən!" mahnısının nümunəsində də öyrənərik. "Əzizsən, Vətən!" mahnısının musiqisi Oqtay Zülfüqarovun, sözləri Hikmət Ziyanındır. Bu mahnıda belə sözlər var: "Sən nə qədər əzizsən, doğma, sevimli Vətən!"*

*Ney: – Mənim fikrimcə, bu sözləri "Cəngi" rəqsinə də aid etmək olar. Bilirsən, onu xarakterini əzəmətinə görə Vətənimizin qalalarına bənzədirəm.*

*Saz: – Mən isə rəqsin musiqisini eşidəndə sürətinə görə sanki gözümün qarşısında çapan atlılar canlanır.* ***Dostlar, görəsən, niyə musiqi əsərləri müxtəlif templərdə olur?"***

### II. Fəaliyyət

Müəllim şagirdlərə zərb musiqi alətləri paylayır və "Asta, orta, tez" adlı oyunu keçmək üçün onun qaydalarını izah edir.

**Oyunun qaydaları:** "Gəzinti" mətni oxunur (dərsliyin 44-cü səhifəsində mətnin məzmunu şəkillərlə verilib). Bu zaman mətndə (şəkillərdə) verilən hadisələr müvafiq templərlə zərb alətlərində təsvir olunmalıdır.

***Tapşırıq 1 (fərdi iş): Şəkillərdəki hadisələrin sürətini zərb musiqi alətləri ilə təsvir edin.***

**"Gəzinti"**

(mötərizələrdə verilən ifadələr müvafiq tempi bildirir)

"Biz pilləkənlərdən düşürük (zərbələr yavaş-yavaş vurulur) və bayıra çıxırıq (zərbələr yavaş-yavaş vurulur). Göydə Günəş parlayır, biz gəzir, əylənir, topla oynayırıq (zərbələr tez-tez vurulur). Birdən bir bulud görünür, külək əsir, şimşək çaxır və yağış başlayır: əvvəlcə tək-tək damlalar (zərbələr yavaş-yavaş vurulur), sonra güclü yağış başlayır (zərbələrin sürəti artır). Uşaqlar bu havadan qorxaraq evə qaçırlar (daha sürətli və ritmik zərbələr vurulur)..."

**Qeyd:** Müəllim oyunun gedişatında gəzinti zamanı sürəti bildirən başqa hadisələri də mətnə əlavə edə bilər.

Müəllim *temp* sözündən istifadə edərək şagirdlərlə müşahidə olunan sürətdə fərqlilik haqqında kiçik müzakirə aparır. Müzakirədə müəllim *temp* anlayışına və "Tempin növləri" sxeminə (dərslik səh. 44) istinad edir.

Müəllim "Cəngi" rəqsini səsləndirir və rəqs hərəkətlərini şagirdlərin yadına salır ("Rəqs elementləri", dərslik səh. 43).

***Tapşırıq 2 (kollektiv və fərdi iş): Rəqsi xarakter və tempinə uyğun ifa edin.***

Müəllim 3-cü tapşırığı yerinə yetirmək üçün şagirdlərin diqqətini mahnının I bənd və nəqəratının sözlərini əks etdirən təsvirlərə (qala divarında olan şəkillər: *oynayan uşaqlar* – I bəndin, *Azərbaycan bayrağını xatırladan geyimdə olan qız* – nəqəratın sözlərini təsvir edir) və cədvələ yönəldir (dərslik səh. 45). Sonra "Əzizsən, Vətən!" mahnısını səsləndirir, I bəndi və nəqəratı öyrədir.

***Tapşırıq 3 (kollektiv və fərdi iş): İfa qaydalarına riayət edərək mahnının birinci bənd və nəqəratını oxuyun və cədvələ uyğun ritmini tutun.***

Müəllim səslənmiş musiqi əsərlərinin əsasında şagirdlərlə templərin müxtəlifliyi ilə bağlı söhbət aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Dərsdə daha çox xoşunuza gələn nə oldu?*

## 21-ci dərs

| | |
|---|---|
| Mövzu: | **Əzizim Vətən!** |
| Standart: | 1.2.3., 2.1.3. |
| Məqsəd: | 1. "Əzizsən, Vətən!" mahnısının giriş, bənd və nəqəratını fərqləndirir.<br>2. Musiqinin tempinə uyğun hərəkət edir.<br>3. İfa zamanı nəfəsalmadan düzgün istifadə edir. |
| İnteqrasiya: | Azərb.d.: 4.1.5., F.t.: 3.1.1. |
| İş forması: | kollektiv, kiçik qruplarla və fərdi iş |
| İş üsulu: | müzakirə, mahnıoxuma, ritmtutma, oyun, dərsliklə iş |

**Resurs:** "Əzizsən, Vətən!" mahnısının quruluş" sxemi (dərslik səh. 46), "Əzizsən, Vətən!" mahnısının videoçarxı və ya səsyazması, mahnı müəlliflərinin portreti və şərti şəkli (dərslik səh. 78)

**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Melodiya: – Hər kəsə öz vətəni əzizdir. Onu sevib qorumalıyıq! Vətən – doğma diyar, ana yurddur. Vətənimizdə uşaqlar şən və qayğısız yaşayır, oynayır, əylənirlər.*

*Ney: – Bizim görüşlərimizdə çoxlu oyunlar keçirilir. Bu gün də "Fırlança" adlı yeni oyunla tanış olacağıq.*

*Saz: – Görüşlərimizdə oyunlardan başqa, tapmaca və atalar sözləri də səslənir. Qədim diyarımızın qalalarına baxdıqca atalar sözü yadıma düşür: "Vətən elin evidir, dayağıdır".*

*Melodiya: – Nə gözəl sözlərdir. Keçən dəfə oxuduğumuz "Əzizsən, Vətən!" mahnısı da bu mövzudadır.*

*Ney: – "Əzizsən, Vətən!" mahnısı mənim də çox xoşuma gəlir. Mahnı bizi bənd və nəqəratına uyğun şəkillər çəkməyə həvəsləndirir. Həmin şəkilləri qalanın divarlarında yerləşdirmişik.*

*Saz: – Ney, fikir verdim ki, şəkillərdə müxtəlif hadisələr təsvir olunub.* ***Dostlar, görəsən, "Əzizsən, Vətən!" mahnısındakı hadisələri hansı templə təsvir etmək olar?"***

## II. Fəaliyyət

Müəllim *bənd* və *nəqərat* anlayışlarını yada salır, mahnının *giriş* hissəsi haqqında məlumat verir (dərslik səh. 46). Bunun üçün "Əzizsən, Vətən!" mahnısının quruluşu" sxeminə istinad edir. Verilmiş sxemdə giriş üçbucaqla, bəndlər dairə ilə, nəqərat isə kvadratla verilib. (Bu sxemi plakatda da təsvir edib nümayiş etdirmək olar).

Müəllim şagirdlərin diqqətini "Əzizsən, Vətən!" mahnısının II və III bəndinin sözlərini əks etdirən təsvirlərə (qala divarında olan şəkillər: *rəsm çəkən qız* və *kitab oxuyan oğlan* – II bəndin, *ev tikən oğlanlar* – III bəndin sözlərini təsvir edir) yönəldir və onları öyrədir. Sonra mahnı tam ifa olunur.

***Tapşırıq 1 (kollektiv və fərdi iş): Mahnını ifadəli oxuyun və əl çalmaqla nəqəratın ritmini tutun.***

Müəllim "Fırlança" oyununun qaydalarını izah edir (dərslik səh. 47). Sinif kiçik qruplara bölünür.

**Oyunun qaydaları:** Hər qrupun üzvləri öz masası arxasında dairə şəklində durmalıdır. Müəllim "Əzizsən, Vətən!" mahnısını asta, orta və tez templərdə səsləndirir. Səslənən musiqinin tempinə uyğun olaraq uşaqlar musiqi sədaları altında saat əqrəbi istiqamətində masanın ətrafında fırlanırlar.

Müəllim musiqini səsləndirir və "Fırlança" oyununu keçirir.

***Tapşırıq 2 (kiçik qruplarla iş): Musiqinin dəyişən tempinə uyğun dairədə hərəkət edin.***

Müəllim müxtəlif templərin musiqi əsərlərinə necə təsir etdiyi barədə müzakirə aparır.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Dərsdə sizin üçün ən maraqlı nə oldu?*

# 22-ci dərs

**Mövzu:** **Gəl, gəl, a yaz günləri!**
**Standart:** 2.1.3., 3.1.2.
**Məqsəd:** 1. "Gəl, gəl, a yaz günləri!" mahnısını müşayiət edir.
2. Musiqinin ritm və tempinə uyğun hərəkət edir.
**İnteqrasiya:** Azərb.d.: 4.1.7., F.t.: 3.1.1.
**İş forması:** kollektiv və fərdi iş
**İş üsulu:** müzakirə, mahnıoxuma, rəqsetmə, ritmtutma, dərsliklə iş
**Resurs:** "Rəqs elementləri" sxemi (dərslik səh. 49), "Gəl, gəl, a yaz günləri!" mahnısının və "Novruzu" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, mahnının müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 76 və 80)
**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Temp: – Dostlar, artıq yaz fəsli gəlir, hava isinir, torpaq oyanmağa başlayır. Bir çox xalqlar yaz fəslinin gəlişini bayram kimi qeyd edirlər. Başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da Novruz bayramı ilə bağlı mahnı və rəqslər yaranmışdır.*

*Ritm: – Onlardan biri "Novruzu" Azərbaycan xalq rəqsidir. Dostlarımız istəyirlər ki, bu rəqsi öyrənib yazın gəlişini onunla qarşılasınlar.*

*Saz: – Bir səmaya baxın! Nə gözəl mənzərədir. Göydəki buludlar butanı gətirib. Görəsən, butadakı gözəl naxışlar nəyi ifadə edir?*

*Ney: – Saz, bilirsən ki, Melodiya bizi maraqlı hədiyyələrlə sevindirir. Bu dəfə onun mahnı hədiyyəsi butadadır. Mahnı "Gəl, gəl, a yaz günləri!" adlanır. Onun musiqisi Ağabacı Rzayevanın, sözləri Mirzə Ələkbər Sabirindir.*

*Saz: – **Dostlar, görəsən, "Gəl, gəl, a yaz günləri!" mahnısının və "Novruzu" rəqsinin oxşarlığı nədədir?"***

## II. Fəaliyyət

Müəllim səsaçma məşğələsini keçirir.

Sonra "Gəl, gəl, a yaz günləri!" mahnısını səsləndirir və şagirdlərə öyrədir.

***Tapşırıq 1 (kollektiv və fərdi iş): Mahnını ifadəli oxuyun və ritminə uyğun əl çalın.***

Müəllim "Novruzu" rəqsi haqqında qısa məlumat (rəqsin xarakteri, ritmi və tempi) verir və onun elementlərini öyrədir ("Rəqs elementləri" sxemi. Dərslik səh. 49).

***Tapşırıq 2 (kollektiv və fərdi iş): Rəqsin elementlərini ardıcıllıqla yerinə yetirin.***

Müəllim musiqi əsərlərini fərqli edən melodiya, ritm və temp haqqında şagirdlərlə kiçik müzakirə aparır.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələrini öyrəndik? Bunun üçün nə iş gördük?*

# 23-cü dərs

**Mövzu:** **Çal, oyna!**
**Standart:** 2.1.3., 3.1.2., 3.1.3.
**Məqsəd:**
1. "Novruzu" Azərbaycan xalq rəqsinin xarakter və tempinə uyğun hərəkət edir.
2. Xorla ifa qaydalarına riayət edir.
3. "Gəl, gəl, a yaz günləri!" mahnısını zərb musiqi alətləri ilə müşayiət edir.

**İnteqrasiya:** F.t.: 3.1.1.
**İş forması:** kollektiv və fərdi iş
**İş üsulu:** müzakirə, mahnıoxuma, rəqsetmə, musiqi alətlərində çalma, dərsliklə iş,
**Resurs:** Zərb musiqi alətləri: dəf, zəng, şaxşax; "Gəl, gəl, a yaz günləri!" mahnısının və "Novruzu" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 76 və 80)
**Dərsin gedişi:**

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Melodiya: – Yaz fəsli necə də gözəldir! Bu fəsildə təbiət qış yuxusundan oyanır və çiçəklər açır. Sanki sehrli çubuğun bir toxunuşu ilə ağaclar, kollar canlanır. Qar əriyir, su damcılarının səsləri eşidilir.*

*Ney: – Doğrudur, Melodiya. Baharın gəlişi bizim əhvalımızı da gözəlləşdirir. Şaxtalı qışdan sonra sehrbaz yazın gəlişini səbirsizliklə gözləyirik.*

*Saz: – Gəlin "Novruzu" rəqsini oynayaq. Bilirsən, təbiət qoynunda rəqs* etməyin də ayrı bir gözəlliyi var.

*Ney: – "Gəl, gəl a yaz günləri!" mahnısını da oxuyaq və ritminə uyğun əl çalaq.*

*Ritm: – Çalın, oynayın! Musiqisiz bayram – bayram deyil. Elimizə Novruz gəlir!*

*Saz: –* ***Dostlar, görəsən, musiqinin ritmini daha hansı üsullarla göstərmək olar?"***

## II. Fəaliyyət

Müəllim "Novruzu" Azərbaycan xalq rəqsini səsləndirir.

***Tapşırıq 1 (kollektiv və fərdi iş): Rəqsi xarakter və tempinə uyğun ifa edin.***

Müəllim müzakirədə əl və ayaq hərəkətlərin icrasını rəqsin ritmi ilə əlaqələndirir.

Sonra səsaçma məşğələsini keçirir.

Sinfi qruplara bölür, qrup üzvlərinin hansı müşayiət növü ilə ritm tutacağını müəyyən edir və müvafiq zərb alətlərini paylayır. Şagirdlərin diqqətini sxemə (dərslik səh. 51) cəlb edir və ondan necə istifadə edəcəklərini izah edir. Sonra "Gəl, gəl, a yaz günləri!" mahnısı tam şəkildə ifa olunur.

***Tapşırıq 2 (kollektiv və fərdi iş): Mahnını cədvələ uyğun müşayiət edin.***

Müəllim şagirdlərlə ritmin müxtəlif üsullarla göstərilməsi haqqında müzakirə aparır.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Novruz bayramında hansı mahnı və rəqsləri səsləndirərdiniz? Niyə?*

# 24-cü dərs

| | |
|---|---|
| **Mövzu:** | **Novruz xonçası** |
| **Standart:** | 3.1.2., 3.3.1. |
| **Məqsəd:** | 1. Müxtəlif ritmləri mənimsədiyini nümayiş etdirir.<br>2. Mahnını oxuyaraq ifa qaydalarına riayət edir. |
| **İnteqrasiya:** | F.t.: 2.1.1. |
| **İş forması:** | kollektiv və kiçik qruplarla iş |
| **İş üsulu:** | müzakirə, mahnıoxuma, rəqsetmə, musiqi alətlərində çalma, oyun, dərsliklə iş |
| **Resurs:** | Ramiz Rövşənin "Novruz gəlir" şeiri, zərb musiqi alətləri, sini, fincanlar, səslənəcək musiqi nümunələrinin (dərslik səh. 52-53) şərti şəkilləri təsvir olunan kartlar, musiqi əsərlərinin videoçarxları və ya səsyazmaları |
| **Dərsin gedişi:** | |

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Artıq elimizə Novruz bayramı qədəm basıb. Novruz bolluq və bərəkət bayramıdır.*

*Novruz gəlir, yaz gəlir,*
*Bir əlində saz gəlir.*
*Bir əlində xonçası,*
*Açıb gülün qönçəsi.*
*Bülbülə avaz gəlir,*
*Novruz gəlir, yaz gəlir.*

*Ney: – Ölkəmizin hər bir guşəsində bu bayramla əlaqədar şirniyyatlar bişirilir, səməni becərilir, xonçalar bəzədilir, tonqallar qalanır və el şənliklərində müxtəlif oyunlar keçirilir.*

*Melodiya: – Belə oyunlardan biri "Fincan-fincan" oyunudur. Bu oyunun qaydalarını bir qədər dəyişdirmişik və "Musiqili fincan" adlandırmışıq. İstəmişik ki, oyunda müxtəlif mahnı və rəqslərin şərti şəkillərindən istifadə edək. Bayramı dostlarla birgə keçirək, "Musiqili fincan" adlı oyunda hamımız iştirak edək!*

*Saz: – **Dostlar, görəsən, niyə bayramda müxtəlif musiqi nümunələri səsləndirilir?"***

## II. Fəaliyyət

Müəllim sinfi qruplara bölür və hər qrupa zərb musiqi alətləri verir. Sonra "Musiqili fincan" oyununu keçirmək üçün onun qaydalarını izah edir.

**Oyunun qaydaları:** Müəllim masasına sini qoyur. Oyunda iştirak edən qrupların sayına görə siniyə üzüqoylu fincanlar düzülür. Hər fincanın altında üzərində bir musiqi nümunəsinin şərti şəkli təsvir olunan kart gizlədilir. Növbə ilə hər qrupun nümayəndəsi masaya yaxınlaşaraq fincanlardan birini qaldırır. Fincanın altından çıxan kartdakı şəklə görə həmin qrup üzvləri musiqi nümunəsinin adını və janrını müəyyənləşdirməli, həmin nümunəni (mahnını və ya rəqsi) ifa etməlidir. Bu zaman digər qrupların üzvləri ifa olunan musiqi əsərini zərb musiqi alətləri vasitəsilə və ya əl çalmaqla ritmik müşayiət edirlər.

***Tapşırıq 1 (kollektiv və kiçik qruplarla iş): Şərti şəklə görə musiqi əsərinin adını müəyyənləşdirib onu ifa edin. Həmin əsəri zərb musiqi alətləri ilə (və ya əl çalmaqla) müşayiət edin.***

Müəllim şagirdlərlə bayram musiqisinin müxtəlifliyi haqqında kiçik müzakirə aparır.

## III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Dərs zamanı səslənən musiqi əsərləri sizdə hansı hisslər yaratdı?*

# 25-ci dərs

| | |
|---|---|
| Mövzu: | **Sülh və mübarizlik** |
| Standart: | 2.1.2., 3.1.2. |
| Məqsəd: | 1. "Göyərçinim" mahnısının və "Cəngi" pyesinin emosional məzmununu müəyyənləşdirir.<br>2. "Göyərçinim" mahnısının melodiyasını oxuyur və ritmini tutur. |
| İnteqrasiya: | Azərb.d.: 1.1.2., H.b.: 3.2.1. |
| İş forması: | kollektiv, kiçik qruplarla və fərdi iş |
| İş üsulu: | müzakirə, mahnıoxuma, dinləmə, ritmtutma, dərsliklə iş |
| Resurs: | "Göyərçinim" mahnısının bəndinin sxemi (dərslik səh. 54), "Göyərçinim" mahnısının və "Cəngi" pyesinin videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 76 və 79) |
| Dərsin gedişi: | |

## I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz və Ney uzaqda görünən qalaya tamaşa edirdi. Birdən atların addım səsləri eşidildi: qaladan onlara tərəf bir atlı dəstəsi yaxınlaşırdı.*

*Ney: – Nə əzəmətli görüntüdür! Vətən belə igidlərə güvənir və onlarla fəxr edir.*

*Atlı: – Salam, dostlar. Mən və mənim dəstəm yurdumuzu qoruyub, hər zaman sülhün keşiyində durmuşuq.*

*Saz: – Sizin bu mərdliyinizi və cəsarətinizi, xalqımızın mübariz ruhunu Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəyli "Cəngi" əsərində əks etdirib. Bu əsər bayramlarda tez-tez səslənir.*

*Ney: – İgidlərimizin sayəsində Vətənimizdə sülh və əmin-amanlıq hökm sürür. Saz, bir səmaya bax! Nə gözəl mənzərədir! Buludları ağ göyərçinlərdən ayırmaq olmur. Buludlar səmada ağ pambığa bənzəyir, aralarında göyərçinlər uçur. Görəsən, niyə civildəşirlər?*

*Saz: – Bilirsən, ağ göyərçinlər sülhün rəmzidir. Onlar deyirlər ki, bütün dünya xalqları sülh istəyir. Sülh – sevinc və səadətdir! Sülhdən bəhs edən şeir və mahnılar çoxdur. Onlardan biri musiqisi Ağabacı Rzayevanın, sözləri Mirmehdi Seyidzadənin olan "Göyərçinim" mahnısıdır.* ***Dostlar, görəsən, sülh və mübarizliyi musiqidə təsvir etmək olar?"***

## II. Fəaliyyət

Müəllim musiqidə fasilə, uzun və qısa səslər haqqında məlumat verir (dərslik səh. 54). Sonra "Göyərçinim" mahnısını səsləndirir, şagirdlərin diqqətini mahnının I bəndinə və nəqəratına aid olan təsvirlərə (I bənd – buludda günəş və göyərçin, nəqərat – buludda əllərin içində göyərçin) yönəldir (dərslik səh. 54), mahnının I bəndini və nəqəratını öyrədir.

1-ci tapşırığı yerinə yetirmək üçün müəllim "Göyərçinim" mahnısının bəndinə aid sxemi izah edir (dərslik səh. 54).

***Tapşırıq 1 (kollektiv və fərdi iş): "Göyərçinim" mahnısının bəndini "la" hecası ilə oxuyun və sxemə uyğun əl çalın.***

Ü.Hacıbəylinin "Cəngi" fortepiano pyesi səsləndirilir. Müəllim pyesi səsləndirəndən sonra əsərin xarakteri və tempi haqqında müzakirə aparır.

2-ci tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini müxtəlif sərgilərdə nümayiş olunmuş uşaq rəsmlərinə yönəldir (dərslik səh. 55).

***Tapşırıq 2 (kiçik qruplarla iş): "Cəngi" əsərinə uyğun olan şəkli kiçik dairədə işarələyin.***

Müəllim şagirdlərlə səsləndirilən musiqi əsərlərində sülh və mübarizliyin təsviri haqqında müzakirə aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Sülhü qorumaq üçün siz nə edərdiniz?*

## 26-cı dərs

| | |
|---|---|
| Mövzu: | **Sülhün carçıları** |
| Standart: | 2.1.1., 3.2.2., 3.3.3. |
| Məqsəd: | 1. "Beşik nəğməsi" pyesinin xarakterini müəyyən edir:<br>2. Metallofonun I və V pillələrində çalmaqla "Beşik nəğməsi" pyesini müşayiət edir.<br>3. "Göyərçinim" mahnısını oxuyaraq dirijorluq hərəkətlərini yerinə yetirir. |
| İnteqrasiya: | Azərb.d.: 1.1.2., H.b.: 3.4.1., F.t.: 2.1.1. |
| İş forması: | kollektiv və fərdi iş |
| İş üsulu: | müzakirə, mahnıoxuma, dinləmə, dirijorluq, musiqi alətlərində çalma, dərsliklə iş |
| Resurs: | rəngli karandaşlar, dirijorluq sxemi (dərslik səh. 57), metallofon, "Göyərçinim" mahnısı və "Beşik nəğməsi" fortepiano pyesinin videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və hər iki musiqi əsərinin şərti şəkilləri (dərslik səh. 76 və 79) |

Dərsin gedişi:

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Ritm: – Uşaqlar da ağ göyərçinlər kimi sülhün carçılarıdır və daim açıq səma altında azad, sülh və əmin-amanlıq şəraitində yaşamalıdırlar. Onlar bizim gələcəyimizdir.*

*Saz: – "Göyərçinim" mahnısı da bu mövzudadır. Bu gün mahnının ardını öyrənib onun ritminə uyğun dirijorluq edəcəyik.*

*Melodiya: – Bəli, dostlar. Sülh həyatın mənası, ana laylası, körpələrin səsidir! İndi mən sizə bir layla deyim, sözlərinə fikir verin:*

*Layla dedim, yatasan,*
*Qızılgülə batasan.*
*Qızılgül bağın olsun,*
*Kölgəsində yatasan.*
*Balam layla, a layla!*
*Gülüm layla, a layla!*

*Ney: – Nə gözəl layladır. Ana laylası körpəyə ruh verir, cana dinclik gətirir. Layla ananın üstümüzə sevgi ilə örtdüyü yorğandır. Bu yorğan bizi isidir, hər birimizə şirin yuxular gətirir.*

*Melodiya: – Həqiqətən, ana laylası bütün dərd-səri yox edə biləcək nəğmədir. Gəlin dahi bəstəkarımız Üzeyir Hacıbəylinin "Beşik nəğməsi" adlı əsərini dinləyək və onu musiqi alətlərində müşayiət edək.*

*Saz: –* ***Dostlar, görəsən, "Beşik nəğməsi" və "Göyərçinim" mahnısının oxşarlığı nədədir?"***

### II. Fəaliyyət

Müəllim şagirdlərə rəngli karandaşlar paylayır (sarı, qırmızı, göy) və "Beşik nəğməsi" pyesini səsləndirir.

***Tapşırıq 1 (kollektiv və fərdi iş): "Beşik nəğməsi" əsərinin xarakterinə uyğun simanı müəyyən edib rəngləyin.***

Sonra pyesin xarakteri haqqında kiçik müzakirə aparılır.

Müəllim *metallofon* anlayışı və bu musiqi alətinin quruluşu haqqında məlumat verir (dərslik səh. 56), I və V pillələrinin yerini göstərir və şagirdlərə həmin alətdən paylayır. (Bu alət olmadığı halda şagirdlər I və V pillələri "lay" hecasını oxumaqla əsəri müşayiət edirlər.)

"Beşik nəğməsi" pyesi təkrar səsləndirilir.

***Tapşırıq 2 (kollektiv və fərdi iş): Metallofonun 1-ci və 5-ci pillələrində çalmaqla "Beşik nəğməsi"ni müşayiət edin.***

Müəllim "Göyərçinim" mahnısını səsləndirir, şagirdlərin diqqətini mahnının II bəndinə aid olan təsvirə (II bənd – buludun içində şənlənən uşaqlar və göyərçin) yönəldir (dərslik səh. 57), mahnının II bəndini öyrədir. Sonra müəllim "Göyərçinim" mahnısının quruluş sxemini izah edir (dərslik səh. 57) və şagirdlər mahnını əvvəldən axıradək oxuyurlar. 3-cü tapşırığı yerinə yetirmək üçün müəllim 2/4 ölçüsünün dirijorluq sxemini izah edir (dərslik səh. 57).

***Tapşırıq 3 (kollektiv və fərdi iş): Mahnını oxuyarkən sxemə uyğun dirijorluq edin.***

Müəllim şagirdlərlə səsləndirilən musiqi əsərlərinin oxşarlığı haqqında müzakirə aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Dərsdə hansı musiqi əsərləri səsləndi? Bu əsərlər bizə nədən xəbər verir?*

## 27-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Nəğməli bahar** |
| **Standart:** | 1.1.2., 2.1.3. |
| **Məqsəd:** | 1. İfa olunan mahnıların müəlliflərini müəyyən edir.<br>2. "Azərbaycan" xalq rəqsini xarakter və tempinə uyğun ifa edir. |
| **İnteqrasiya:** | F.t.: 3.1.1. |
| **İş forması:** | kollektiv və fərdi iş |
| **İş üsulu:** | müzakirə, mahnıoxuma, rəqsetmə |
| **Resurs:** | "Uçun, quşlar!" mahnısının quruluşu (dərslik səh. 58) və "Rəqs elementləri" (dərslik səh. 59) sxemləri, "Göyərçinim", "Uçun, quşlar!" və "Əzizsən, Vətən!" mahnılarının və "Azərbaycan" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və səslənəcək musiqi nümunələrinin şərti şəkilləri (dərslik səh. 76, 77, 78 və 80) |
| **Dərsin gedişi:** | |

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Dostlar, bu yaxınlarda Vətənimizin gözəl təbiətinə seyrə çıxmışdım. Yazda bizim təbiət çox gözəl olur. Vətənimizin bu gözəlliyi mahnı və rəqslərdə də öz əksini tapır. Bugünkü görüşümüzdə öyrənəcəyimiz "Azərbaycan" xalq rəqsi buna nümunədir. Rəqsin melodiyasında yurdumuzun gözəlliyi, min rəngə çalan, al-əlvan naxışlı təbiəti və həmvətənlərimizin nikbinliyi duyulur. Rəqs edənlər deyirlər ki, adətimizə görə, qızlar zərif, oğlanlar isə qürurla rəqs edərlər.*

*Ney: – Doğrudur, Saz. Yurdumuz necə də gözəldir! Bax bağımızda da ağaclar tumurcuqlanır, quşlar cəh-cəh vurur.*

*Saz: – "Uçun, quşlar, bizim bağda!" Bu sözlər bu gün öyrənəcəyimiz mahnıdandır. Mahnı "Uçun, quşlar!" adlanır. Mahnının musiqisi Səid Rüstəmovun, sözləri Mirmehdi Seyidzadənindir. Mahnıda Vətənimizin gözəlliyindən bəhs olunur.*

*Ney: –* ***Dostlar, görəsən, Vətən haqqında musiqi əsərlərinin oxşarlığı nədədir?"***

### II. Fəaliyyət

Müəllim "Uçun, quşlar!" mahnısını səsləndirir və şagirdləri həmin mahnının quruluş sxemi ilə tanış edir (dərslik səh. 58).

Müəllim şagirdlərin diqqətini dərsliyin 58-ci səhifəsində verilmiş "Uçun, quşlar!" mahnısının I bəndinə aid şəklə yönəldir (hasara alınmış alma bağı) və həmin hissəni öyrədir. Sonra "Göyərçinim", "Uçun, quşlar!" və "Əzizsən, Vətən!" mahnılarından bir parça səsləndirilir.

***Tapşırıq 1 (kollektiv və fərdi iş): Səslənən mahnıların ardıcıllığına görə bəstəkarlarını müəyyən edib şəkillərini nömrələyin.***

Müəllim "Azərbaycan" Azərbaycan xalq rəqsi haqqında qısa məlumat verir və 2-ci tapşırığı yerinə yetirmək üçün şagirdlərin diqqətini "Rəqs elementləri" sxeminə (dərslik səh. 59) yönəldir.

***Tapşırıq 2 (kollektiv və fərdi iş): Rəqsi xarakter və tempinə uyğun ardıcıllıqla ifa edin.***

Müəllim şagirdlərlə Vətən haqqında musiqi əsərlərinin oxşarlığı barədə müzakirə aparır.

### III. Ümumiləşdirmə və refleksiya

*Müəllim: – Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Onun müəllifləri kimdir? Dərsdə səslənən musiqi əsərlərinin oxşarlığı nədə idi?*

## 28-ci dərs

**Mövzu:** **Gözəl məkan, Azərbaycan!**
**Standart:** 1.2.3., 2.1.3.
**Məqsəd:** 1. Nəqəratlı və nəqəratsız mahnıları fərqləndirir.
2. "Azərbaycan" Azərbaycan xalq rəqsini ifa edir və ritminə uyğun əl çalmaqla müşayiət edir.
**İnteqrasiya:** F.t.: 2.1.1.
**İş forması:** kollektiv və fərdi iş
**İş üsulu:** müzakirə, mahnıoxuma, rəqsetmə, ritmtutma, dərsliklə iş
**Resurs:** "Qonaqlıq", "Göyərçinim", "Uçun, quşlar!" "Əzizsən, Vətən!" və "Azərbaycan" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portretləri və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 77 və 80)
**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Dostlar, bir baxın: yaz fəsli öz gəlişi ilə çiçəklənən Vətənimizin hər guşəsini sanki musiqiyə bürüyüb: qayalardan axan suyun şırıltısı, quşların şən civiltisi, dalğaların oyunu, ləpələrin pıçıltısı...*

*Ney: – Sən danışdıqca xəyallarımda gözəl məkanımız Azərbaycanın təbiəti canlanır. "Azərbaycan" Azərbaycan xalq rəqsinin xarakterini də bu sözlərlə ifadə etmək olar. Bu rəqsi ruh yüksəkliyi ilə ifa etmək lazımdır.*

*Saz: – "Uçun, quşlar!" mahnısını da ifadəli oxumaq lazımdır. Axı bu mahnı təbiətin nemətindən, gözəlliyindən danışır. Bir bax, bağımız gözəlləşib! Oxumaq və oynamaq istəyirəm!*

*Ney: – Gəlin "Uçun, quşlar!" mahnısının ardını öyrənək. Mahnıdakı bu sözlərdən çox xoşum gəlir: "Bənövşələr pıçıldaşır, sizə nəğmə çox yaraşır".*

*Saz: – Bu sözlərlə bağımızın çiçəkli guşəsini gözəl ifadə etdin. Vətənimiz haqqında gör nə qədər musiqi əsərləri var!* ***Dostlar, görəsən, musiqi əsərlərini bir-birindən nə ilə fərqləndirmək olar?"***

### II. Fəaliyyət

Müəllim şagirdlərin diqqətini "Uçun, quşlar!" mahnısının bəndlərinə aid şəkillərə yönəldir: I bənd – hasara alınmış alma bağı, II bənd – hasara alınmış bənövşələr, III bənd – hasara alınmış meyvə bağı (dərslik səh. 60–61). Müəllim "Uçun, quşlar!" mahnısının II və III bəndlərini öyrədir və mahnı əvvəldən axıradək ifadəli oxunur. Sonra "Uçun, quşlar!", "Göyərçinim", "Qonaqlıq", "Əzizsən, Vətən!" mahnılarından bir parça səsləndirilir (dərslik səh. 60).

***Tapşırıq 1 (fərdi iş): Şərti şəkillərə görə nəqəratı olan mahnıların çırtma çalmaqla, nəqəratsız mahnıların isə əl çalmaqla ritmini tutun.***

Müəllim "Azərbaycan" Azərbaycan xalq rəqsini səsləndirir, rəqs hərəkətlərini şagirdlərin yadına salır (dərslik səh. 59). Sonra müəllim sinfi 2 böyük qrupa bölür və şagirdlərə 2-ci tapşırığın şərtini izah edir: 1-ci dəfə rəqs səslənəndə I qrup rəqs edir, II qrup əl çalmaqla onları müşayiət edir (dərslik səh. 61), rəqs təkrar səsləndiriləndə isə II qrup rəqs edir, I qrup əl çalmaqla onları müşayiət edir.

***Tapşırıq 2 (kollektiv və fərdi iş): Rəqsi cədvələ uyğun əl çalmaqla müşayiət edin.***

Müəllim şagirdlərlə musiqi əsərlərinin ifası zamanı onun xarakterinə, sözlərinə (mahnıda), ritm və tempinə fikir verilməsi barədə müzakirə aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələrini ifa etdik? Onlar sizdə hansı təəssüratlar yaratdı?*

## 29-cu dərs

| | |
|---|---|
| **Mövzu:** | **Gülməli nağıl** |
| **Standart:** | 2.1.2., 3.2.1. |
| **Məqsəd:** | 1. "Gülməli nağıl" mahnısının məzmununu səhnələşdirir.<br>2. "Çəkicim, vur!" mahnısını ayrı-ayrı notlarla müşayiət edir. |
| **İnteqrasiya:** | Azərb.d.: 1.2.3., H.b.: 1.1.2. |
| **İş forması:** | kollektiv, kiçik qruplara və fərdi iş |
| **İş üsulu:** | müzakirə, mahnıoxuma, dinləmə, dirijorluq, səhnələşdirmə, dərsliklə iş |
| **Resurs:** | mahnıdakı obrazlara aid əşya və ya maskalar (dərslik səh. 63); "Gülməli nağıl" və "Çəkicim, vur!" mahnısının videoçarxları və ya səsyazmaları, mahnıların müəlliflərinin portreti və şərti şəkilləri (dərslik səh. 77 və 78) |

**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Ney: – Saz, sənin başın evcik tikməyə qarışıb, burada isə bir qaçaqaçdır. Bir siçanı iki pişik, pişikləri isə üç it qovur.*

*Saz: – Mən bilirəm nə qaçaqaçdır: itlər pişikləri, pişiklər isə siçanı tutmaq istəyir. Bu mənə "Gülməli nağıl" mahnısını xatırlatdı. Görüşümüzdə həmin mahnı ilə tanış olacağıq. Mahnını bəstəkar Oqtay Zülfüqarov Teymur Elçinin eyniadlı şeirinə bəstələyib.*

*Ney: – Heyvanlar çoxdan həyatımızın ayrılmaz hissəsi olub. Ev heyvanları insanların köməkçisidir. Onların bizim nəvaziş və qayğımıza ehtiyacı var.*

*Saz: – Bax buna görə də biz uşaqlarla birlikdə pişiyimiz Məstan üçün ev tikirik. Musiqisi Asya Sultanovanın, sözləri isə Teymur Elçinin olan "Çəkicim, vur!" mahnısında da bundan danışılır.* ***Dostlar, görəsən, mahnılarda heyvanları necə təsvir etmək olar?"***

### II. Fəaliyyət

Müəllim şagirdlərin diqqətini "Çəkicim, vur!" mahnısının bəndləri və nəqəratına aid şəkillərə yönəldir: I bənd – oğlan oturub ev tikir, II bənd – ayaq üstə olan oğlan, nəqərat – buludda pişiyin təsviri (dərslik səh. 62) və mahnını öyrədir.

Sonra müəllim şagirdlərə metallofonları paylayır. Metallofonda I–V pillələrin yerləşməsini bir daha nümayiş etdirir (Alət olmadığı halda şagirdlər mahnının I–V pillələrini cədvələ uyğun barmaqların sayı ilə göstərirlər) (dərslik səh. 62). "Çəkicim, vur!" mahnısı təkrar səsləndirilir.

***Tapşırıq 1 (fərdi iş): Mahnını oxuyaraq onu metallofonda cədvələ uyğun müşayiət edin.***

Müəllim mahnının məzmunu və xarakteri ilə bağlı kiçik müzakirə aparır. Sonra "Gülməli nağıl" mahnısını səsləndirir.

***Tapşırıq 2 (kollektiv və kiçik qruplara iş): "Gülməli nağıl" mahnısını səhnələşdirin.***

Müəllim bütün şagirdlərin səhnəcikdə iştirakını təmin etmək üçün mahnını bir neçə dəfə səsləndirir və səhnələşdirmə fəaliyyətini təkrar edir. Sonra mahnılarda heyvanları təsvir etmək üçün müxtəlif templərdən istifadə edilməsi barədə müzakirə aparılır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunələri ilə tanış olduq? Dərsdə sizə maraqlı olan nə oldu?*

## 30-cu dərs

| | |
|---|---|
| **Mövzu:** | **Hər birimiz bir çiçək** |
| **Standart:** | 2.1.3., 3.3.3. |
| **Məqsəd:** | 1. "Qızılgül" Azərbaycan xalq rəqsini xarakter və tempinə uyğun ifa edir.<br>2. 2/4 ölçülü mahnıda dirijorluq hərəkətlərini yerinə yetirir. |
| **İnteqrasiya:** | H.b.: 1.3.1. , F.t.: 3.1.1. |
| **İş forması:** | kollektiv və fərdi iş |
| **İş üsulu:** | müzakirə, mahnıoxuma, rəqsetmə, musiqi alətlərində çalma, dərsliklə iş |
| **Resurs:** | metallofon, "Rəqs elementləri" sxemi (dərslik səh. 65), "Bənövşə" mahnısının və "Qızılgül" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səs yazmaları, mahnı müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 75 və 80) |

**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Melodiya: – Dostlar, yurdumuzda güllü-çiçəkli, gül ətirli yaz fəsli davam edir. Torpaq alabəzək örtüklərə bürünmüşdür. Təbiət o qədər füsunkardır ki, öz hisslərimi mahnı və rəqslərlə ifadə etmək istəyirəm.*

*Ney: – Azərbaycan musiqisi də təbiətimiz kimi olduqca rəngarəngdir. Əvvəlki görüşlərimizdə biz müxtəlif mövzulara həsr olunmuş musiqi əsərləri ilə tanış olduq. Bugünkü görüşümüz isə gül-çiçəklərə həsr olunub.*

*Saz: – Mən sizi bütün güllərin şahı sayılan qızılgülə aid eyniadlı rəqslə tanış edəcəyəm. Bu, "Qızılgül" Azərbaycan xalq rəqsidir. Onun melodiyası da qızılgülün özü kimi incə, gözəl, həm də qürurludur.*

*Ney: – Güllərə həsr olunmuş mahnılarımız da çoxdur. Onlardan biri musiqisi Səid Rüstəmovun, sözləri Abdulla Şaiqin olan "Bənövşə" mahnısıdır. Gəlin çiçəklərə həsr olunmuş mahnını və rəqsi öyrənək. **Dostlar, görəsən, musiqi əsərlərində çiçəkləri necə təsvir etmək olar?"***

### II. Fəaliyyət

Müəllim "Bənövşə" mahnısı haqqında məlumat verir, şagirdlərin diqqətini I bənd və nəqəratına aid təsvirlərə yönəldir: I bənd – quşların dimdiyində olan şəkildə qəmli bənövşə, nəqərat – bənövşələri dərən qız və oğlan (dərslik səh. 64). Sonra müəllim mahnının I bəndini və nəqəratını öyrədir. Daha sonra şagirdlərə dirijorluq hərəkətlərini xatırladır və 1-ci tapşırığı yerinə yetirmək üçün onun şərtini izah edir (dərslik səh. 64).

***Tapşırıq 1 (kollektiv və fərdi iş): "Bənövşə" mahnısının birinci bəndini və nəqəratını ifadəli oxuyarkən sxemə uyğun dirijorluq edin (bəndini bir əllə, nəqəratını isə iki əllə).***

Sonra müəllim mahnının məzmunu və xarakteri ilə bağlı kiçik müzakirə aparır.

Müəllim "Qızılgül" rəqsi haqqında qısa məlumat verir və ona aid videoçarxı nümayiş etdirir. Sonra 2-ci tapşırığı yerinə yetirmək üçün şagirdlərin diqqətini "Rəqs elementləri" sxeminə (dərslik səh. 65) yönəldir və rəqsi təkrar səsləndirir.

***Tapşırıq 2 (kollektiv və fərdi iş): Rəqsi xarakter və tempinə uyğun ardıcıllıqla ifa edin.***

Müəllim şagirdlərlə səslənən musiqi əsərlərinin əsasında musiqidə çiçəklərin təsviri barədə müzakirə aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Hansı musiqi nümunəsi ilə tanış olduq? Musiqi nümunələrinə görə dərsin mövzusunu siz necə adlandırardınız?*

## 31-ci dərs

| | |
|---|---|
| Mövzu: | **Güllərin rəqsi** |
| Standart: | 1.2.3., 2.1.3. |
| Məqsəd: | 1. "Bənövşə" mahnısının giriş, bənd və nəqəratını fərqləndirir.<br>2. "Qızılgül" Azərbaycan xalq rəqsinin elementlərini yerinə yetirir. |
| İnteqrasiya: | H.b.: 1.1.2., F.t.: 4.1.1. |
| İş forması: | kollektiv, cütlərlə və fərdi iş |
| İş üsulu: | müzakirə, mahnıoxuma, rəqsetmə, ritmtutma, musiqi alətlərində çalma, dərsliklə iş |
| Resurs: | mahnının müşayiət (dərslik səh. 66) və "Rəqs elementləri" (dərslik səh. 65) sxemləri, sadə zərb musiqi alətləri, "Bənövşə" mahnısının və "Qızılgül" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, mahnı müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 75 və 80) |

Dərsin gedişi:

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Nə gözəl yurdumuz var! Dağlar, dərələr, düzlər güllərlə, çiçəklərlə örtülüb. Yazın sərin küləyi onları elə tərpədir ki, güllər sanki rəqs edirlər. Onların bu hərəkətləri mənə gözəl rəqslərimizi xatırladır.*

*Ney: – Güllər haqqında çoxlu tapmacalar var. Birini mən söyləyim, açmasını sən tap:*

*Sapını tutmaq olmaz,*
*Ətrindən doymaq olmaz.*

*Saz: – Bu tapmacanın açması qızılgüldür. Bilirəm, bu tapmacanı niyə dedin. Bizim keçən görüşümüzdə öyrəndiyimiz rəqs də "Qızılgül" adlanırdı. Onda bir tapmaca da mən deyim:*

*Bu, yaz çiçəyidir,*
*Boyu kiçikcə.*
*Zərif ətirlidir,*
*Ləçəyi incə.*

*Ney: – Bilirəm, bilirəm, bu tapmacanın açması bənövşədir. Gəlin "Bənövşə" mahnısının davamını öyrənək, sonra isə "Qızılgül" xalq rəqsini bir də ifa edərik.* ***Dostlar, görəsən, "Bənövşə" mahnısının və "Qızılgül" rəqsinin oxşarlığı nədədir?"***

### II. Fəaliyyət

Müəllim şagirdlərin diqqətini "Bənövşə" mahnısının I, II bəndlərinə və nəqəratına aid şəkillərə yönəldir: I bənd – quşların dimdiyində olan şəkildə qəmli bənövşə gülü, II bənd – quşların dimdiyində olan şəkildə şən bənövşə, nəqərat – bənövşələri yığan qız və oğlan (dərslik səh. 66). Sonra müəllim "Bənövşə" mahnısının II bəndini öyrədir. Mahnı tam şəkildə ifa olunur və sinfə zərb musiqi alətləri paylanır.

Müəllim 1-ci tapşırığı yerinə yetirmək üçün şagirdlərə dərsliyin 66-cı səhifəsində verilən cədvəli izah edir: mahnının bəndlərinin ritmini əl çalmaqla və çırtmalarla, nəqəratının ritmini isə dəf və şaxşaxlarla tutmaq lazımdır.

***Tapşırıq 1 (kollektiv və fərdi iş): Mahnını oxuyaraq cədvələ uyğun ritmini tutun.***

Müəllim sinfi cütlərə bölür, "Qızılgül" Azərbaycan xalq rəqsinin hərəkətlərini şagirdlərin yadına salır (dərslik səh. 65) və rəqsi səsləndirir.

***Tapşırıq 2 (kollektiv və cütlərlə iş): Rəqsi temp və ritminə uyğun cütlərlə ifa edin.***

Müəllim şagirdlərlə ifa olunmuş mahnı və rəqsin oxşarlığı barədə müzakirə aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Səslənən musiqi nümunələrini daha hansı çiçəklərə aid etmək olar?*

## 32-ci dərs

| | |
|---|---|
| **Mövzu:** | **Bayram günü** |
| **Standart:** | 1.2.2., 2.1.2. |
| **Məqsəd:** | 1. Musiqi əsərlərinin janrlarını müəyyən edir.<br>2. Musiqi əsərlərinin emosional məzmununu öz ifasında büruzə verir. |
| **İnteqrasiya:** | H.b.: 3.2.1. |
| **İş forması:** | kollektiv, cütlərlə və fərdi iş |
| **İş üsulu:** | müzakirə, mahnıoxuma, rəqsetmə, uyğunlaşdırma, dərsliklə iş |
| **Resurs:** | Azərbaycan Respublikasının Dövlət Himni, "Bayrağım", "Gözəl Vətən", "Əzizsən, Vətən!" mahnıları, "Marş" pyesi və "Azərbaycan" Azərbaycan xalq rəqsinin videoçarxları və ya səsyazmaları, səslənəcək musiqi nümunələrinin şərti şəkilləri (dərslik səh. 68) |
| **Dərsin gedişi:** | |

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Ney: – May ayı gözəl bayramlarla zəngindir. Belə bayramlardan biri 28 May – Respublika Günüdür. Bu bayram xalqımızın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə həkk olunub. Xalqımız bu günü böyük ruh yüksəkliyi ilə qeyd edir.*

*Melodiya: – Bu bayramı biz də qeyd edək. Vətənimizi vəsf edən musiqi əsərləri səslənsin! Bir "Musiqi ağacı"na bax. Vətənimizə həsr olunmuş şəkillərlə bəzədilib. Bu şəkillər keçdiyimiz musiqi əsərlərinə aiddir.* ***Dostlar, görəsən, müxtəlif janrlı musiqi əsərlərində Vətəni necə təsvir etmək olar?"***

### II. Fəaliyyət

Müəllim 1-ci tapşırığı yerinə yetirmək üçün *mahnı*, *rəqs* və *marş* janrlarını yada salır və şagirdlərin diqqətini "Musiqi ağacı"nda verilmiş şərti şəkillərə yönəldir (dərslik səh. 68).

***Tapşırıq 1 (fərdi iş): Musiqi əsərlərinin şərti şəkilləri ilə uyğun gələn musiqi növlərini (janrlarını) xətlə birləşdirin.***

Sonra müəllim 2-ci tapşırığı yerinə yetirmək üçün Azərbaycan Respublikasının Dövlət Himni, "Bayrağım" və "Gözəl Vətən" mahnıları, "Marş" pyesi, "Əzizsən, Vətən!" mahnısı və "Azərbaycan" Azərbaycan xalq rəqsindən bir parçanı səsləndirir (videoçarxları nümayiş etdirir).

***Tapşırıq 2 (kollektiv və cütlərlə iş):"Musiqi ağacı"nda şərti şəkilləri verilmiş musiqi əsərlərinin xarakteri haqqında fikirlərinizi söyləyin.***

Müəllim şagirdlərlə Vətən haqqında musiqi əsərlərinin xarakteri və onların ifa tərzi barədə müzakirə aparır.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Dərsdə səslənən musiqi nümunələrini daha hansı bayramlarda ifa etmək olar?*

## 33-cü dərs

| | |
|---|---|
| **Mövzu:** | **Uşaqların nəğməli dünyası** |
| **Standart:** | 1.2.2., 3.1.2. |
| **Məqsəd:** | 1. Konsert proqramına uyğun müxtəlif janrlı musiqi nümunələrini seçir.<br>2. Mahnını sadə zərb musiqi alətləri ilə müşayiət edir. |
| **İnteqrasiya:** | Azərb.d.: 3.1.5., T.i.: 2.1.1. |
| **İş forması:** | kollektiv və kiçik qruplarla iş |
| **İş üsulu:** | müzakirə, mahnıoxuma, rəqsetmə, musiqi alətlərində çalma |
| **Resurs:** | yapışqan, rəngli karandaşlar, iş vərəqi, musiqi əsərlərinin şərti işarələri, zərb musiqi alətləri (dəf, nağara, zəng); "Əzizsən, Vətən!" mahnısı və "Yallı" Azərbaycan xalq rəqsinin videoçarxları və səsyazmaları, mahnı müəlliflərinin portreti və hər iki musiqi nümunəsinin şərti şəkilləri (dərslik səh. 78 və 80) |

**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını oxumağa davam edir:

*"Saz: – Dostlar, uşaqlar Vətənin gələcəyi, işıqlı sabahıdır. Dövlətimiz uşaqların xoşbəxt və sağlam böyüməsi üçün hər cür şərait yaradır, onlara öz hüquqlarını qorumağa kömək edir. Bu münasibətlə 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü hər il bayram kimi qeyd olunur. Gəlin biz də bu bayramı qeyd edək. Görüşümüzdə şair Hikmət Ziyanın şeirinə Oqtay Zülfüqarovun bəstələdiyi "Əzizsən, Vətən!" mahnısını oxuyaq və "Yallı" Azərbaycan xalq rəqsini ifa edək. Bu gün bir maraqlı işimiz də var – afişa hazırlayacağıq. Afişanı gələn görüşümüzdə keçirəcəyimiz konsertimiz üçün tərtib edəcəyik. Konsertimiz maraqlı keçsin deyə afişada xoşladığınız mahnı və rəqslərin adlarını yaza bilərsiniz.* ***Dostlar, görəsən, niyə bayramlarda müxtəlif janrlı musiqi əsərləri ifa olunur?"***

### II. Fəaliyyət

Sinif qruplara bölünür və hər qrupa bir növ zərb alətləri paylanır (dəf, nağara, zəng). "Əzizsən, Vətən!" mahnısı ifa olunur.

***Tapşırıq 1 (kiçik qruplarla iş): Mahnını oxuyarkən onu zərb musiqi alətləri ilə müşayiət***

***edin.***

Müəllim *afişa* və *konsert* haqqında qısa məlumat verir (dərslik səh. 69).

Hər qrupa iş vərəqi, il boyu keçdikləri musiqi nümunələrinin şərti şəkilləri, yapışqan və rəngli karandaşlar paylanır.

2-ci tapşırığı yerinə yetirmək üçün müəllim onun şərtlərini izah edir: şagirdlər seçilmiş musiqi əsərlərinin şərti şəkillərini iş vərəqinə yapışdırıb onu rəngli karandaşlarla bəzəməlidirlər.

***Tapşırıq 2 (kollektiv və kiçik qruplarla iş): Afişa tərtib etmək üçün 2 mahnı və 2 rəqsin adını yazın.***

Sonra hər qrupun iş vərəqi müzakirə olunur və sinif konsertinin ümumi afişası üçün musiqi əsərləri müəyyən olunur. (Bu dərsdə müəllim müəyyən olunmuş musiqi əsərləri əsasında sinif konserti üçün afişa hazırlamalıdır.)

Dərsin sonunda şagirdlər "Yallı" Azərbaycan xalq rəqsini ifa edirlər.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Bugünkü dərsimizin mövzusu nə idi? Afişanı tərtib edərkən nəyə fikir verdiniz?*

## 34-cü dərs

**Mövzu:** **Musiqi çələngi**
**Standart:** 2.1.3., 3.1.3.
**Məqsəd:** 1. Musiqi nümunələrini tempinə və ritminə uyğun ifa edir.
2. Xor daxilində mahnının ifa qaydalarına riayət edir.
**İnteqrasiya:** Azərb.d.: 3.1.5., F.t.: 3.1.1.
**İş forması:** kollektiv iş
**İş üsulu:** mahnıoxuma, rəqsetmə, musiqi alətlərində çalma
**Resurs:** sinif afişası, il boyu keçdikləri musiqi nümunələrinin videoçarxları və ya səsyazmaları
**Dərsin gedişi:**

### I. Motivasiya

Müəllim "Saz və Ney" nağılını bitirir:

*"Ney: – Əziz dostlar! Siz gözəl və sehrli musiqi aləminə səyahəti bitirdiniz. Vətənimizin gözəl musiqi nümunələri ilə tanış oldunuz. Xoşunuza gələnləri bölüşə bilərsiniz.*

*Saz: – Səyahət zamanı siz musiqini dinləməyi, oxumağı, çalmağı və rəqs etməyi öyrəndiniz. Bu işdə sizə mən, Ney, Melodiya, Ritm, Temp və başqa nağıl qəhrəmanları kömək etdik. Çox çalışın və bilik əldə etmək yolunda uğurlar qazanın! Sinif konsertində fəal olun! Gələn görüşlərədək!"*

### II. Fəaliyyət

Müəllim əvvəlcədən bəzədilmiş sinif otağında konsert üçün hazırlanmış afişanı lövhənin yanında asır. Sonra tədris ili ərzində şagirdlərdə yaranmış təəssüratları dərslikdə ayrılmış yerdə qeyd etmələrinə təklif edir (dərslik səh. 70). Sonda şagirdlərin təəssüratları ilə bağlı kiçik müzakirə aparılır və hazırlanmış afişanın əsasında sinif konserti keçirilir.

### III. Ümumiləşdirmə və refleksiya

Müəllim: – *Görüşlərimizdə sizə maraqlı olanları söyləyin.*

# Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

**Marş tempində**



# Gözəl Vətən

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Teymur Elçinindir.



# Nağıl-nəğmə

Musiqisi Asya Sultanovanın,
sözləri Teymur Elçinindir.

**Orta tempdə**



# Bayrağım

Musiqisi Səid Rüstəmovun,
sözləri Cavad Cavadlınındır.

**Hərəkətli**




# Sayıram onacan

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Teymur Elçinindir.

**Canlı**



# Bax belə!

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Ramiz Heydərindir.




# Qartopu

Musiqisi Səid Rüstəmovun,
sözləri Mirmehdi Seyidzadənindir.



# Əzizsən, Vətən!

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Hikmət Ziyanındır.



# Qonaqlıq

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Xanımana Əlibəylinindir.

**Tez**




# Gəl, gəl, a yaz günləri!

Musiqisi Ağabacı Rzayevanın,
sözləri Mirzə Ələkbər Sabirindir.

**Oynaq və şən**



# Göyərçinim

Musiqisi Ağabacı Rzayevanın,
sözləri Mirmehdi Seyidzadənindir.

**Hərəkətli**




# Uçun, quşlar!

Musiqisi Səid Rüstəmovun,
sözləri Mirmehdi Seyidzadənindir.

**Canlı**



# Çəkicim, vur!

Musiqisi Asya Sultanovanın,
sözləri Teymur Elçinindir.

**Hərəkətli**




# Bənövşə

Musiqisi Səid Rüstəmovun,
sözləri Abdulla Şaiqindir.

**Canlı**



# Marş

pyes

Üzeyir Hacıbəyli




# Cəngi

pyes

Üzeyir Hacıbəyli



# Beşik nəğməsi

pyes

Üzeyir Hacıbəyli

**Tələsmədən**




# Gülməli nağıl

Musiqisi Oqtay Zülfüqarovun,
sözləri Teymur Elçinindir.

**Tələsmədən**



# Uzundərə

Azərbaycan xalq rəqsi

**Mülayim, zərif**



# Nəlbəki

Azərbaycan xalq rəqsi

**Oynaq**



# Qaytağı

Azərbaycan xalq rəqsi




# Brilyant

Azərbaycan xalq rəqsi




# Yallı

Azərbaycan xalq rəqsi



# Köçəri

Azərbaycan xalq rəqsi




# Cəngi

Azərbaycan xalq rəqsi



# Novruzu

Azərbaycan xalq rəqsi




# Azərbaycan

Azərbaycan xalq rəqsi



# Qızılgül

Azərbaycan xalq rəqsi




## İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR

### Azərbaycan dilində


1. İradə Məmmədova. Uşaqların musiqi dünyası. Bakı, 2004.
2. Kamal Həsənov. Azərbaycan qədim folklor rəqsləri. "İşıq" nəşriyyatı, Bakı, 1988.
3. Kurikulum. Elmi-metodik jurnal, №1, 2, 3. "Təhsil" nəşriyyatı, Bakı, 2008.
4. "Musiqi" (I sinif), müəllim üçün metodik vəsait. "Naksuana" nəşriyyatı, Bakı, 2008.
5. "Musiqi" (I sinif), müəllim üçün metodik vəsait. "Şərq-Qərb" nəşriyyatı, Bakı, 2012.
6. Ramiz Zöhrabov. Bəstəkarlarımızın portreti. "Gənclik" nəşriyyatı, Bakı, 1997.
7. "Ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün fənn kurikulumları". Elmi redaktor İsgəndər İsgəndərov. "Təhsil" nəşriyyatı, Bakı, 2008.
8. Zülfiyyə Veysova. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. UNICEF, 2007.
9. Zümrüd Sədraqızı. Uşaq bağçalarında musiqi məşğələlərinin müntəxəbatı. Bakı, 2005.


### Rus dilində


10. Критская Е.Д., Сергеева Г.П., Шмагина Г.С. Методика работы с учениками. "Музыка" 1–4 класс. Издательство "Просвещение". Москва, 2002.
11. Методика музыкального воспитания в детском саду (под редакцией Н.А.Ветлугиной). Издательство "Просвещение". Москва, 1982.


### İnternet resursları


12. Azərbaycan rəqslərinin səhnə təcəssümü http://konservatoriya.az/?p=3569
13. Diferensial təlim haqqında http://www.tipii.edu.az/az/article/554-diferensial-talim-haqqinda
14. www.bloqspot.com. (Azərbaycan xalq rəqsləri)
15. www.unisef.org (tərkibinə təlim materiallarına müxtəlif səviyyələr üçün istinadlar daxildir)
16. www.omposersunion.az (Azərbaycan Bəstəkarlar İttifaqı)
17. www.kurikulum.az.
18. www.educult.az.

## Buraxılış məlumatı

**MUSİQİ 1**

*Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün*
*Musiqi fənni üzrə dərsliyin (qrif nömrəsi: 2020-011)*
**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəlliflər: **Nərgiz Rəcəbova**
**Şəhla Quliyeva**
**Zemfira Əliyeva**

Buraxılışa məsul **Rafiq Kazımov**
Üz qabığının dizaynı **Nurlan Nəhmətov**
Dizayner və səhifələyici **Gülşən Cabbarova**
Redaktor **Gültəkin Cəfərova**
Korrektor **Nübar Qarayeva**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Nərgiz Cabbarlı**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Sevil İsmayılova**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 6,6. Fiziki çap vərəqi 8. Formatı 57x82 $^{1}/_{8}$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 64.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş _____ . Tiraj 8530. Pulsuz. Bakı – 2020

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 11.08.2020**

Nəşriyyat:
**“Şərq-Qərb” ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid küç., 111)**

Çap məhsulunu istehsal edən:
**“Radius MMC” mətbəəsi**
**(Bakı şəhəri, Binəqədi şossesi, 53)**

Pulsuz